

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 iyun 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU-nun rektoru BMT-nin altkomitəsinin Vyanada keçirilən sessiyasında iştirak edib ➔Səh.3

BDU ilə Tekirdağ Namık Kemal Universiteti arasında Mövlanə mübadilə protokolu imzalanıb ➔Səh.3

BDU "QS World University Rankings" beynəlxalq reytinqində ➔Səh.3

Azərbaycanın taleyini dəyişən Milli Qurtuluş Günü ➔Səh.6

BDU BMT-nin beynəlxalq elmi tədbirinə ev sahibliyi edəcək ➔Səh.7

"Azərbaycan Respublikası və beynəlxalq təşkilatlar arasında əməkdaşlıq: milli qurtuluşdan müasir inkişafa doğru" adlı dəyirmi masa ➔Səh.7

BDU-da "Şanlı Ordumuz qürurumuzdur" adlı dəyirmi masa keçirilib ➔Səh.9



BDU-nun rektoru Elçin Babayev Çex Respublikasının səfiri Milan Ekertlə görüşüb

➔Səh.3



BDU və "Xəzər TV" MMC arasında əməkdaşlıq müqaviləsi imzalanıb

➔Səh.3



"Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında rolu" mövzusunda ustad dərsi keçirilib

➔Səh.4



BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Son zəng"

➔Səh.6




Ən müqəddəs səfər - ŞUŞA SƏFƏRİ

➔Səh.7



## 15 İyun - Milli Qurtuluş Günüdür

### Bakı Dövlət Universitetində "Dahi şəxsiyyət və müdrik lider" mövzusunda Respublika elmi konfransı keçirilib

***Əvvəlcə konfrans iştirakçıları BDU-da Ulu Öndərin büstü önünə gül dəstələri qoyublar.***

Konfransın plenar iclasını giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev bildirib ki, xalqların və dövlətlərin taleyində tarixi günlərin, yeni reallıqlar yaradan və inkişafa təkan verən ictimai-siyasi proseslərin olduqca böyük əhəmiyyəti var. Zaman keçdikcə fenomenal liderlərin, tarixi yaradan şəxsiyyətlərin ən çətin situasiyalardakı misilsiz rolları, qəbul etdikləri müdrik qərarların qüdrəti bir daha aydınlaşır. Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan 15 iyun tarixi də xalqımızın və dövlətimizin tarixi və taleyində bu cür müstəsna rola malikdir. 1991-ci ildə xalqımız uzun illər arzusunda olduğu dövlət müstəqilliyini yenidən bərpa etsə də, təəssüf ki, qısa zaman kəsiyində müstəqilliyin itirilməsi sınağı ilə üz-üzə qaldı. Müstəqil Azərbaycan inkişaf və rifah əvəzinə günü-gündən tənəzzülə uğradı. Xalqımız vətəndaş qarşıdurmasına yuvarlandı.1992-1993-cü illərdə hakimiyyətdə olan qüvvələr ölkə daxilində siyasi prosesləri tənzimləməyi bacarmır, respublikada sabitlik, əmin-amanlıq yaratmaq əvəzinə, səriştəsizlikləri ilə yaratdıqları böhranı daha da dərinləşdirirdilər. Belə bir dözülməz şəraitdə xalqımızı və ölkəmizi bu acınacaqlı vəziyyətdən yalnız fenomenal şəxsiyyət - Ulu öndər Heydər Əliyev çıxara bilərdi. Qədirbilən xalqımız müdrik qərar verdi. Bu qərar dünyaya xilaskarlıq missiyası ilə gəlmiş Ümummilli lider Heydər Əliyevin Naxçıvandan Bakıya - ölkənin siyasi mərkəzinə dəvət edilməsi idi.

Rektor qeyd edib ki, 1993-cü ilin 9 iyununda xalqının səsinə, harayına səs verərək və eyni zamanda həyatını böyük təhlükələrə ataraq Bakıya dönən Heydər Əliyev mahiyyətcə, məzmunca yeni və daha parlaq bir tarixin yaradıcısı oldu. Bu dönüş, bu qayıdış bütün mənalarda milli qurtuluşumuz, nicatımız idi. Bu mənada Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildiyi 1993-cü ilin 15 iyun tarixinin xalqımız tərəfindən Milli Qurtuluş Günü adlandırılması xalqımızın müdrik rəhbərinə verdiyi tarixi qiymət, öz sabahını müəyyənləşdirmək baxımından böyük tarixi qərardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan tarixinin dönüş nöqtəsi" adlandırdığı Milli Qurtuluş Günü bu gün əldə etdiyimiz bütün uğurların təməli, möhək daşı oldu. 1997-ci ildən etibarən rəsmi olaraq dövlət bayramı kimi qeyd edilən bu tarix ilk növbədə XX əsrdə ikinci dəfə əldə etdiyimiz müstəqilliyimizin xilası kimi olduqca böyük əhəmiyyət daşıyır. Məhz bu parlaq tarixdən sonra Ulu öndərin yorulmaz səyləri nəticəsində dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas olan ölkəmiz ardıcıl rifah və tərəqqi yoluna qədəm qoydu.

*(Ardı 4-cü səhifədə)*

## BDU-nun nəşr etdiyi "Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər)" kitabının təqdimatı keçirilib

➔Səh.3

# BDU-nun nəşr etdiyi "Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər)" kitabının təqdimatı keçirilib

***İyunun 8-də Heydər Əliyev Mərkəzində Bakı Dövlət Universitetinin nəşr etdirdiyi iki cildlik "Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər)" kitabının təqdimat mərasimi keçirilib.***




***Əvvəlcə Dövlət himni səsləndirilib. Daha sonra Azərbaycanın azadlığı və müstəqilliyi uğurunda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

BDU-nun rektoru, layihənin rəhbəri və kitabın elmi məsləhətçisi Elçin Babayev Ümummilli lider Heydər Əliyevin məzunu olmağı ilə daim fəxr etdiyi Bakı Dövlət Universitetinin hazırlayıb ərsəyə gətirdiyi "Azərbaycan Respublikasının tarixi" kitabının təqdimat mərasiminin iştirakçılarını salamlayıb, müstəqil Azərbaycan Respublikasının tarixini özündə sistemli, əhatəli, etibarlı tarixi mənbələr əsasında əks etdirən kitabın elmi ictimaiyyət, tarixçilər, politoloqlar tərəfindən rəğbətlə qarşılanacağına əminliyini bildirib.

Rektor vurğulayıb ki, ötən əsrin 90-cı illərində əldə edilən dövlət müstəqilliyi hər birimiz üçün ən böyük sərvətdir. Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir. Azərbaycan Respublikası artıq 30 ildir ki, əbədi və dönməz müstəqilliyə qovuşub. Azərbaycan dövləti xüsusilə müstəqilliyin ilk illərində kifayət qədər çətin və keşməkeşli mərhələlərdən keçərək, sürətli və dayanıqlı iqtisadi inkişaf yoluna qədəm qoyub, iri regional layihələrin təşəbbüskarına, əsas icraçısına çevrilib. İqtisadiyyatın sürətli inkişaf tempi, uğurlu daxili və xarici siyasət, beynəlxalq səviyyədə qazanılan nüfuzu ilə paralel olaraq ölkəmizin hərbi qüdrətinin möhkəmləndirilməsi və bütün bunların məntiqi nəticəsi olaraq Vətən müharibəsində qazanılan inamlı qələbə ilə ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etməsi Azərbaycanı regionun və dünyanın nüfuzlu dövlətləri ilə bir sıraya qoyub: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük məharətlə həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasət nəticəsində bu gün regionda lider dövlətə çevrilən ölkəmiz dünya miqyasında söz sahibi olan dövlətlərlə birgə beynəlxalq sülh və təhlükəsizlik məsələlərində əsas rol oynayan etibarlı tərəfdaş mövqeyinə yüksəlib".



Rektor Elçin Babayev Ümummilli lider, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş Heydər Əliyevin müstəqilliyimizin əsas memarı olduğunu qeyd edib: "Ulu öndər hər zaman tariximizin obyektiv, etibarlı mənbələr əsasında, ciddi tarixşünaslar tərəfindən yazılmasını vacib hesab edirdi. Müdrik siyasətçi bu istiqamətdə elm və təhsil ictimaiyyətinin qarşısında mühüm vəzifələr qoyub, prioritet hədəflər müəyyənləşdirmişdi. Ümid edirik ki, iki cilddə nəşr olunan "Azərbaycan Respublikasının tarixi" kitabı həmin vəzifələrin yerinə yetirilməsinə böyük töhfələr verəcək. Kitabın Qarabağ Zəfərindən sonra ərsəyə gəlməsi olduqca əlamətdar və qürurvericidir. Azərbaycan tarixinin son 30 illik dövrünə, dövlətimizin və xalqımızın müstəqillik və azadlıq uğrunda keçdiyi yola, müasir dövrdə misli görünməmiş sürətlə tərəqqisi və inkişafına, xüsusilə Qarabağ Zəfəri və onun siyasi nəticələrinə müfəssəl şəkildə toxunan "Azərbaycan Respublikasının tarixi" kitabı tariximizin daha dolğun və ətraflı əks etdirilməsi istiqamətində atılmış ilk addımlardan biridir. Kitabın əsas qayəsi ölkəmizin 30 ildə keçdiyi tarixi inkişaf yolunu - müstəqilliyinin ilk illərində parçalanmaq, vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalan, əraziləri qəsb olunmuş, siyasi, iqtisadi böhran məngənəsində boğulan dövlətdən bugünkü güclü iqtisadiyyata, qüdrətli orduya, milli həmrəyliyə malik, regionda lider dövlətə çevrilməsini, bu yolda manevrələrin məharətlə dəf olunmasını, milli maraqlara söykənən uğurlu daxili və xarici siyasətin həyata keçirilməsini və s. olduğu kimi, tarixi faktlarla əks etdirməkdir. Xoşbəxtik ki, BDU-nun nəşr etdiyi bu kitab tariximizin yüksəliş və zəfər mərhələsi ilə yekunlaşır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yüksəliş və Zəfər tariximiz isə davam edir, bu şanlı tarixin hər gün yeni-yeni parlaq səhifələri yazılır".

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, "Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər)" kitabının nəşri ölkənin ictimai-siyasi həyatında mühüm hadisə kimi qəbul olunmalıdır. Kitabın yüksək peşəkarlıqla hazırlandığını deyən nazir müavini bildirib ki, müasir Azərbaycan tarixi gənclərin formalaşmasında böyük əhəmiyyətə malikdir: "Hazırda bütün sahələrdə Azərbaycanın sürətli inkişafını müşahidə edirik. Bir ildən çoxdur tarixi qələbəmizi qazanmışıq. Bütün bunlar kitabda sistemli əks olunub. Gənclər tariximizi dərindən öyrənməlidirlər. Bu kitabla tanış olduqca görürük ki, Azərbaycan nə qədər çətin yol keçib. Kitabın üstünlüyü ondadır ki, bu çətinliklər gizlədilməyib. Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin bu çətinliklərin öhdəsindən necə məharət və uzaqgörənliklə gəlmələri kitabda çox ətraflı əks olunub. Kitab gənclərin vətənpərvərlik ruhunda inkişafına imkan verəcək. Təhsil müəssisələrində bu tarixin öyrənilməsinə böyük diqqət yetiriləcək. Nazir müavini kitabın ərsəyə gəlməsinə görə BDU rəhbərliyinə və kitabın müəllifinə təşəkkür edib.



İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva isə çıxışında kitabın siyasətçilər, politoloqlar, tarixçilər, tələbələr üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, kitabın I fəslində Ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizin inkişafında, müstəqilliyimizin möhkəmləndirilməsində misilsiz xidmətləri, həyata keçirdiyi hüquqi, demokratik islahatlar ətraflı əks olunub: "Son 30 ildə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində önəmli addımlar atılıb. Şərqdə ölüm cəzası ilk dəfə Azərbaycanda ləğv olunub. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu islahat humanist addım olmaqla yanaşı, Azərbaycanın Avropa dəyərlərinə inteqrasiyası baxımından da önəmlidir. Seçki islahatları, medianın inkişafı istiqamətində atılan addımlar da bu dəyərlərə xidmət edir. Azərbaycanda Ombudsman institutu da məhz Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə yaradılıb. Bu humanist siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İndiyədək Azərbaycanda 68 əfv sərəncamı və 12 amnistiya aktı qəbul olunub".

BDU-nun professoru, akademik Rafael Hüseynov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun kafedra müdiri Ziyafət Əsgərov, Milli Məclisin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, BDU-nun kafedra müdiri Hicran Hüseynova, Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri, akademik Nizami Cəfərov, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, BDU-nun professoru, Milli Məclisin üzvü Musa Qasımlı çıxışlarında kitabın Azərbaycan ictimaiyyəti üçün əhəmiyyətini, tariximizin daha dolğun əks olunması yönündə dəyərini vurğulayıblar. Qeyd ediblər ki, kitab yaxın zamanlarda müxtəlif xarici dillərə tərcümə olunmalı, təhsil müəssisələrində geniş tədris edilməlidir.



# BDU-nun rektoru Elçin Babayev Çex Respublikasının səfiri Milan Ekertlə görüşüb

***İyunun 13-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Çex Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Milan Ekertlə görüşüb.***

Rektor Elçin Babayev səfiri BDU-da görməkdən məmnun olduğunu bildirib. O qeyd edib ki, BDU-nun Çex Respublikasının ali təhsil müəssisələri ilə müxtəlif istiqamətli əməkdaşlığı mövcuddur. BDU-nun Çex Respublikasının Palaski Universiteti, Praqa Texniki Universiteti, Karlov Univeristeti, Cənubi Bohemia Universiteti ilə müxtəlif illərdə müqavilələr imzaladığını xatırladan Elçin Babayev həmin universitetlərlə magistratura və doktorantura təhsil səviyyələri üzrə mübadilə və ikili diplom proqramları, birgə müsabiqələr, kadr hazırlığı, elmi-tədqiqat layihələri, elmi simpozium, seminar, konfrans, ixtisasartırma kursları və tədris planlarının təşkili istiqamətlərində əməkdaşlığın həyata keçirildiyini qeyd edib.

Səfir görüşə görə təşəkkürünü



bildirib və qarşıdakı illərdə iki ölkə arasında elm və təhsil sahəsində əlaqələrin daha da genişlənəcəyinə ümid etdiyini vurğulayıb.

Görüşdə BDU və Çex Respublikasının ali məktəbləri arasında elmi-təşkilati əlaqələrin daha da dərinləşməsi məsələləri müzakirə olunub.

# BDU və "Xəzər TV" MMC arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***İyunun 17-də Bakı Dövlət Universiteti ilə "Xəzər TV" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və "Xəzər Media Mərkəzi"nin baş direktoru Murad Dadaşov imzalayıb.

İmzalanma mərasimində



çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, "Xəzər TV" ilə imzalanan müqavilə əməkdaşlıqda yeni perspektivlər açır: "BDU-nun yenilənmə siyasətində təcrübə, sənaye və istehsalat sahələri ilə əlaqələrin gücləndirilməsi əsas götürülür. "Xəzər TV" Cənubi Qafqazda texniki baxımdan ən yaxşı imkanlardan birinə malik televiziyadır. BDU-da olduğu kimi, "Xəzər TV"də də yenilənmə gedir. Professional heyət və yeni yanaşmalar artıq öz bəhrəsini verir. Burada BDU-nun məzunu olan Murad Dadaşovun da xüsusi rolu var".

Rektor vurğulayıb ki, imzalanan əməkdaşlıq müqaviləsi real işlərin görülməsinə hədəflənib: "Jurnalistika peşəsi üçün təcrübə ən dominant məsələdir. Hesab edirəm ki, dərsliklərin yazılması zamanı nəzəriyyə ilə yanaşı, təcrübəsi olan şəxslər də həmmüəllif ola bilərlər. "Xəzər TV" ilə birlikdə media sahəsində birgə layihə və tədqiqatlar həyata keçirə, dərsliklər hazırlana, ustad dərsləri, ortaq konfrans, sərgi, təlim və seminarlar təşkil edilə bilər. Birgə əməkdaşlığın kifayət qədər effektli olacağına inanıram".

"Xəzər Media Mərkəzi"nin baş direktoru Murad Dadaşov isə bildirib ki, müasir dövrün çağırışları mətbuatı ikiqat məsuliyyətli olmağa vadar edir. Bu baxımdan BDU ilə imzalanan müqavilə peşəkar jurnalist kadrların hazırlanmasına mühüm töhfə verəcək: "Bu ilin oktyabr ayında "Xəzər Media Mərkəzi" özünün 15 illik yubileyini qeyd edəcək. Qarşıda mühüm dəyişiklər və yeni layihələr var. Əməkdaşlıq müqaviləsinin gələcək planlar üçün uğurlu olacağına inanıram".

Qeyd edək ki, müqavilə BDU-da müvafiq ixtisaslar üzrə təhsilalanlar üçün "Xəzər TV"də tədris ili ərzində istehsalat və yay təcrübə proqramlarının təşkil edilməsini, telekanal əməkdaşları tərəfindən təlimlərin keçirilməsini, onların təlim-tədris fəaliyyətinə cəlb edilməsini nəzərdə tutur. Müqavilə çərçivəsində BDU-da tələbələrin peşə təcrübəsinin artırılması ilə bağlı müxtəlif müsabiqə və tədbirlər, "Xəzər TV"yə ekskursiyalar təşkil olunacaq. "Xəzər TV" tərəfindən müvafiq təcrübə proqramlarını və təlimləri müvəffəqiyyətlə başa vuran BDU tələbələrinə sertifikatlar veriləcək, xüsusi fərqlənən tələbə və məzunlar telekanalda işlə təmin ediləcək.

"Xəzər TV" əməkdaşlarının ixtisas və biliklərinin daha da artırılması üçün tərəflər arasında əməkdaşlığın qurulması, BDU tərəfindən irəli sürülən və ictimai əhəmiyyət kəsb edən təşəbbüslərə telekanalın media dəstəyinin göstərilməsi, ümumi maraq doğuran digər tədbirlərin həyata keçirilməsi də müqavilədə öz əksini tapıb.

# BDU-nun rektoru BMT-nin altkomitəsinin Vyanada keçirilən sessiyasında iştirak edib

***Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev BMT-nin Kosmosdan Dinc Məqsədlərlə İstifadə üzrə Komitəsinin Elm və Texnika Altkomitəsinin (The Scientific and Technical Subcommittee of the United Nations Committee on the Peaceful Uses of Outer Space (COPUOS)) Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmiş 65-ci sessiyasında iştirak edib.***

Rektor Elçin Babayev həmçinin Beynəlxalq Kosmik Hava Təşəbbüsü (International Space Weather Initiative (ISWI)) üzrə proqramın işçi iclasında da iştirak edib. BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) tərəfindən Bakı Dövlət Universitetində 2022-ci il 31 oktyabr - 4 noyabr tarixlərində "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, kosmik hava və geosfer" ("Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") adlı birgə beynəlxalq tədbirin keçirilməsi razılaşdırılıb və təşkilati məsələlər müzakirə olunub. Onlarla xarici ölkədən alim və mütəxəssislərin iştirak edəcəyi tədbirin məqsədlərindən biri də elmi tədqiqatlarla yanaşı, inkişaf etməkdə olan ölkələrdə uyğun sahədə elmi-tədqiqat cihaz və alətlərinin yerləşdirilməsi məsələlərinin müzakirəsi və kadr hazırlığı üzrə birgə beynəlxalq səylərin davam etdirilməsidir.

# BDU ilə Tekirdağ Namık Kemal Universiteti arasında Mövlanə mübadilə protokolu imzalanıb

**İyunun 16-da Bakı Dövlət Universiteti ilə Türkiyənin Tekirdağ Namık Kemal Universiteti arasında Mövlanə mübadilə protokolu imzalanıb.**

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Tekirdağ Namık Kemal Universitetinin rektoru Mümin Şahin imzalayıblar.

Müqavilə çərçivəsində bakalavrların, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

2006-cı ildə əsası qoyulmuş Tekirdağ Namık Kemal Universitetində 30000 tələbə təhsil alır. 11 fakültədə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Universitetdə 3 institut, 12 peşə məktəbi və 16 araşdırma mərkəzi fəaliyyət göstərir.

# BDU "QS World University Rankings" beynəlxalq reytinqində

"QS World University Rankings" beynəlxalq reytinq agentliyi 2022-cü il üçün dünya universitetlərinin növbəti reytinq siyahısı açıqlayıb. 2011-ci ildən başlayaraq dünya universitetlərinin reytinqi siyahısına daxil olan Bakı Dövlət Universiteti (BDU) bu il də siyahıya daxil edilərək, 1001-1200-cü yerdə qərarlaşıb.

Belə ki, öz strategiyasında təhsil və elmi tədqiqatların sıx inteqrasiyasını, o cümlədən tələbələrin tədris praktikasının birbaşa olaraq tədqiqatla əlaqələndirilməsini əsas götürən BDU reytinq siyahısında akademik nüfuz, fakültə/tələbə nisbəti və beynəlxalq tələbə nisbəti göstəriciləri üzrə irəliləyib. BDU məşğulluq nəticələrinə görə reytinq siyahısında 486-cı yerdə qərarlaşıb.

QS beynəlxalq reytinqində dünya universitetləri 6 göstərici - akademik nüfuz (academic reputation (40%)), işəgötürənlər nüfuzu (employer reputation (10%)), fakültə/tələbə nisbəti (faculty/student ratio (20%)), fakültə üzrə istinadlar (citations per faculty (20%)), beynəlxalq fakültə nisbəti (international faculty ratio (5%)) və beynəlxalq tələbə nisbəti (international student ratio (5%)) əsasında müqayisə edilir.

Onu da qeyd edək ki, BDU Azərbaycan universitetləri arasında Böyük Britaniyanın Times Higher Education (THE) jurnalı tərəfindən tərtib olunan və dünyanın ən nüfuzlu reytinqlərindən hesab olunan Dünya Universitetləri Reytinqində (THE World University Ranking) yer alan yeganə universitetdir.

# "Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında rolu" mövzusunda ustad dərsi

***İyunun 2-də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, professor İradə Hüseynovanın "Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında rolu" mövzusunda ustad dərsi keçirilib.***

Professor İradə Hüseynova Ümummilli lider Heydər Əliyevin bacarıqlı dövlət başçısı, təcrübəli siyasətçi, dövlətçiliyimizi möhkəmləndirən və inkişaf etdirən qüdrətli şəxsiyyət olduğunu, onun respublikamıza rəhbərlik illərinin Azərbaycan tarixində mühüm mərhələ təşkil etdiyini diqqətə çatdırıb.

Ustad dərsində Ulu öndərin siyasi fəaliyyətinin müxtəlif mərhələlərinə toxunulub. Məruzəçi qeyd edib ki, 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi rəhbərliyə gələn Ulu öndər keçmiş SSRİ-nin xammal mənbəyinə çevrilmiş respublikamızın yeni inkişaf strategiyasını hazırlayıb qısa müddətdə həyata keçirdi. Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geri qalan Azərbaycan tezliklə İttifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi.



Məruzədə qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyevin siyasi fəaliyyətinin Moskva dövrü bir daha onun yüksək peşəkarlığını, təşkilatçılıq qabiliyyətini, geniş və masştablı təfəkkürə malik olduğunu göstərdi. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi o, 10-dan çox nazirliyin və bir neçə komitənin işinə rəhbərlik edirdi. Heydər Əliyev bütün SSRİ üzrə geriliyi aradan qaldırmaqla nəinki İttifaqda, bütün dünyada tanındı. Ümummilli lider SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Azərbaycanın vəziyyəti ilə hər zaman maraqlanır, ölkə iqtisadiyyatının, elminin, təhsilinin inkişafına xüsusi qayğı və diqqət yetirirdi. 1990-cı ilin 20 Yanvar faciəsindən sonra o, ilk şəxs idi ki, sovet rəhbərliyinin addımını pislədi. Qanlı Yanvar faciəsini törədənləri ittiham etdi, Kommunist Partiyasının sıralarını tərk etdi.

İradə Hüseynova vurğulayıb ki, Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin Naxçıvan dövrü də (1990-1993) xüsusi səciyyə daşıyır. Belə ki, Heydər Əliyev Naxçıvan Ali Məclisinin istər sıravi deputatı, sonradan isə sədri olduğu zaman Azərbaycan dövlətçiliyi üçün böyük tarixi əhəmiyyət kəsb edən qərarlar qəbul edildi. Milli dövlətçilik təsisatlarının təşəkkül tapması məhz o dövrə təsadüf edir. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan diyarında dalğalanması; 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi; Naxçıvanın çətin mühasirə şəraitində hərtərəfli inkişafının təmin edilməsi böyük iradə sahibi, qüdrətli tarixi şəxsiyyət Heydər Əliyevə məxsus idi.

1993-cü il iyunun əvvəllərində ölkədə siyasi və iqtisadi böhranın hökm sürdüyü, Azərbaycan dövlətçiliyinin itirilmə təhlükəsi yaşandığı anda Vətənimizin böyük və qəhrəman oğlu xalqın təkidi və çağırışı ilə yenidən böyük siyasətə qayıtdı. Onun böyük siyasətə qayıdışı ölkədə cərəyan edən bütün təhlükəli proseslərin qarşısını aldı. Ulu öndərin qətiyyəti, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyaraq dirçəliş mərhələsinə daxil oldu, ölkə iqtisadiyyatı, ordu quruculuğu, elm, təhsil, səhiyyə sahələri inkişaf etdi, xalqın rifahı yaxşılaşdı.

Ustad dərsində qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu, milli maraqlara söykənən dövlətçilik siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müqəddəs ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusu 44 günlük Vətən müharibəsində şanlı Zəfərə imza atıb, işğal altında olan torpaqlarımızı azad edərək, üçrəngli bayrağımızı ucaldıb.

*(əvvəli 1-ci səhifədə)*

# BDU-da 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş Respublika elmi konfransı

***Ulu öndərin rəhbərliyi ilə qısa zaman ərzində aparılan siyasi-iqtisadi islahatlar, peşəkar ordu quruculuğu, bütün bunların fonunda yaranmış əmin-amanlıq, sabitlik, rifah xalqımızın sabaha olan ümidlərini artırdı. Onu müdrik və cəsarətli rəhbərinin ətrafında yumruq kimi birləşməyə sövq etdi. Eyni zamanda xalqın inamından güc alan Ulu öndər müstəqil Azərbaycan dövlətinin siyasi və hüquqi təsisatlarını, inkişaf strategiyasını müəyyənləşdirdi.***

2003-cü ildə xalqın yüksək etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ulu öndərimizin xilaskarlıq, qurtuluş, tərəqqi və rifah missiyasını uğurla davam etdirdi. Ölkəmiz daha da qüdrətləndi, əsası Ulu öndər tərəfindən qoyulan siyasi idarəçilik sistemi inkişaf etdirildi. Balanslaşdırılmış siyasət yürüdən dövlətimiz dayanıqlı və davamlı rifaha nail odu. Azərbaycanı günbəgün qüdrətləndirən möhtərəm Prezidentimiz







İlham Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan və tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi ilə layiqli davamçısı olduğu Ulu öndərin ən böyük arzusunu gerçəkləşdirdi. Ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı milli qurtuluş savaşı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Qarabağın işğaldan qurtulması ilə özünün zirvəsinə çatdı.

Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri Kamilə Əliyeva çıxışında 15 iyunun Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını və ölkənin iqtisadi, siyasi, hərbi inkişafının məhz bu möhtəşəm tarixdən başladığını qeyd edib.

Milli Məclisin üzvü Sevinc Fətəliyeva isə bildirib ki, Azərbaycanın qazandığı bütün nailiyyətlərin əsasında qurtuluş məfkurəsi, Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası dayanır.

Konfransda Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Heydər Əliyev: 1969-1982-ci illər intibah dövrünün banisi, BDU-nun kafedra müdiri, akademik Yaqub Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", BDU-nun kafedra müdiri İradə Hüseynova "Heydər Əliyev və Qafqazda sülh prosesi", Tarix fakültəsinin II kurs magistrantı Sarışan Adışova "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzularında məruzə ediblər.

Tədbir ədəbi-bədii hissə ilə davam edib.

# BDU-nun Elmi Kitabxanası təlim-seminar keçirib

***İyunun 30-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanası Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) çərçivəsində Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) professor-müəllim heyəti, magistr və tədqiqatçıları üçün "Akademik bazalardan istifadə və nəşr imkanları" adlı təlim-seminar keçirib. Tədbiri*** giriş sözü ilə açan ADİU Kitabxana-İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayeva Mərkəzin abunə olduğu akademik bazalar, beynəlxalq nəşrlər, elektron kitabxana resursları barədə məlumat verib.

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova kitabxana işi sahəsində nüfuzlu beynəlxalq təşkilat və nəşriyyatlarla ali məktəb kitabxanaları arasında əməkdaşlığın qurulmasında BDU-nun Elmi Kitabxanasının fəaliyyəti barədə təqdimatla çıxış edib.

Az.KİK-in rəhbəri, EİFL.net və EBSCO-nun Azərbaycan üzrə təmsilçisi, BDU-nun Elmi Kitabxanasında şöbə müdiri Cəmilə Yusifova isə EBSCO və EİFL.net beynəlxalq konsorsiumunun xidmətləri, müxtəlif elm və tədris sahələri üzrə hazırlanmış jurnal, kitab, qəzet paketləri, iqtisadiyyatla bağlı xüsusi akademik jurnallar və onlardan istifadə qaydalarından bəhs edib.

Tədqiqatçılara EİFL.net-in innovativ xidmətlərindən, elmi araşdırmalar zamanı elektron resurslardan, tammətnli məqalələrdən, kitablardan istifadə etmək imkanlarından danışan növbəti təlimçi, ADA Universitetinin kitabxana sistemləri mühəndisi, EİFL.net-in "Open Access" üzrə koordinatoru İltifat İbrahimov jurnallarda məqalə nəşri, beynəlxalq bazalarda səmərəli axtarışın aparılması qaydalarını iştirakçılara əyani şəkildə təqdim edib.

Sonda təlimçilər tədbir iştirakçılarının suallarını cavablandırıblar.

# Azərbaycanın taleyini dəyişən Milli Qurtuluş Günü

*Xalqların və dövlətlərin taleyində əlamətdar təqvimlərin, tarixi günlərin, yeni reallıqlar və inkişaf qanunauyğunluqları yaradan ictimai-siyasi proseslərin olduqca böyük əhəmiyyəti var. Zaman keçdikcə həmin tarixi günlərin mahiyyəti, ölkənin və millətin taleyindəki əvəzsiz rolu yenidən araşdırılır, hər dəfə yeni-yeni həqiqətlər üzə çıxır, fenomenal liderlərin, tarixi yaradan şəxsiyyətlərin ən çətin zamanlarda misilsiz xidmətləri, qəbul etdikləri müdrik qərarların qüdrəti bir daha aydınlaşır. Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan 15 iyun tarixi də xalqımızın və dövlətimizin tarixində və taleyində bu cür müstəsna əhəmiyyətə və rola malikdir.*



***Xalqımızın taleyini dəyişən, onu tərəqqiyə və rifaha istiqamətləndirən bu tarixi günün 29-cu ildönümündə Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasını bir daha dərindən dərk edir, onu sonsuz sevgi və ehtiramla yad edirik.***

***Xoşbəxt xalqıq ki, müstəqilliyimizin memarı, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, müdrik rəhbərin siyasi kursuna sədaqətin simvolu möhtərəm cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz günbəgün daha da inkişaf edir.***

1991-ci ildə xalqımız uzun illər arzusunda olduğu dövlət müstəqilliyini yenidən bərpa etsə də, təəssüf ki, qısa zaman kəsiyində müstəqilliyin itirilməsi sınağı ilə üz-üzə qaldı. Müstəqilliyin ilk günlərindən başlayaraq daxili çəkişmələrin, Azərbaycanın müstəqil dövlət kimi bölgədə inkişafını və rifahını istəməyən xarici qüvvələrin səyləri nəticəsində ölkədə miqyası ifadə olunmayacaq dərəcədə xaos və özbaşınalıq mühiti yarandı. Belə bir şəraitdə eyforiya dalğası ilə hakimiyyətə gələn AXC-Müsavat cütlüyünün bacarıqsızlığı, yanlış qərarları, naşı idarəçiliyi siyasi proseslərin, həmçinin bütün fəaliyyət sahələrində ölkənin idarə edilməsində, əslində isə idarə olunmamasında rəngləri daha da tündləşdirdi. Müstəqil Azərbaycan inkişaf və rifah əvəzinə günü-gündən tənəzzülə uğradı, öz taleyinin sahibi ola bilməyən xalqımız vətəndaş qarşıdurmasına yuvarlandı. Ayrı-ayrı siyasi qruplaşmalara tabe olan qanunsuz silahlı dəstələr, aclıq, qıtlıq, səfalət, özbaşınalıq, satqınlıq, siyasi qruplar arasındakı intriqalar, vəzifə hərisliyi, kürsünün Vətəndən üstün tutulması və bütün bunların fonunda insanlarda formalaşmış ümidsizlik həmin dövrün, acı da olsa, gerçək mənzərəsidir.

1992-1993-cü illərdə hakimiyyətdə olan qüvvələr ölkə daxilində siyasi prosesləri tənzimləməyi bacarmır, respublikada sabitlik, əmin-amanlıq yaratmaq əvəzinə, səriştəsizlikləri ilə yaratdıqları böhranı daha da dərinləşdirirdilər. Eyni zamanda, xarici siyasətdə bir-birinin ardınca yol verilən kobud səhvlər ölkəmizin dünya dövlətləri ilə, xüsusilə qonşu ölkələrlə əlaqələrinə ciddi xələl gətirirdi.

Belə bir dözülməz şəraitdə xalqımızı və ölkəmizi bu acınacaqlı vəziyyətdən yalnız fenomenal şəxsiyyət - Ulu öndər Heydər Əliyev çıxara bilərdi. Qədirbilən xalqımız yad təsirlərin, siyasi oyunların, xaos və özbaşınalığın yaratdığı ümidsizliyin girdabında boğulsa da, nəhayət, özündə güc taparaq müdrik qərar verməyi bacardı. Bu qərar dünyaya xilaskarlıq missiyası ilə gəlmiş Ümummilli lider Heydər Əliyevin Naxçıvandan Bakıya - ölkənin siyasi mərkəzinə dəvət edilməsi idi. Məhz ölkənin, xalqımızın milli qurtuluşunu şərtləndirən bu tarixi qərarın əhəmiyyəti bu gün ərazi bütövlüyünü təmin etmiş qüdrətli Azərbaycanda daha parlaq, daha aydın, əzəmətli görsənir. Bu məqamda onu da xüsusi vurğulamaq lazımdır ki, Ulu Öndər hələ sovet hakimiyyəti illərindən başlayaraq bütün təqib və təzyiqlərə, yaradılan məhrumiyyətlərə baxmayaraq müstəqilliyimizə, milli qurtuluşumuza gedən yolun təməl daşlarını qoyurdu. Bu gün əminliklə söyləyirik ki, ölkəmizin müstəqilliyə gedən yolu 1969-cu ildən - Ulu öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdən başlayıb. Məhz həmin dövrdən etibarən respublikamızın inkişafında tərəqqi meyilləri gücləndi, xalqımızda milli qürur, milli mənlik şüuru yenidən oyandı, insanların qəlbində müstəqillik duyğuları baş qaldırdı. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illər bütün sahələrdə Azərbaycanın quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü.

1993-cü ilin 9 iyununda qədirbilən xalqımızın səsinə, harayına səs verərək və eyni zamanda həyatını böyük təhlükələrə ataraq Bakıya dönən Heydər Əliyev mahiyyətcə, məzmunca yeni və daha parlaq bir tarixin yaradıcısı oldu. Bu dönüş, bu qayıdış bütün mənalarda milli qurtuluşumuz, milli nicatımız idi. Bu mənada Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi 1993-cü il 15 iyun tarixinin xalqımız tərəfindən Milli Qurtuluş Günü adlandırılması qədirbilən xalqımızın müdrik rəhbərinə verdiyi tarixi qiymət, öz sabahını müəyyənləşdirmək baxımından verdiyi böyük tarixi qərardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan tarixinin dönüş nöqtəsi adlandırdığı Qurtuluş Günü bu gün əldə etdiyimiz bütün uğurların təməli, məhək daşı oldu.

1997-ci ildən etibarən rəsmi olaraq dövlət bayramı kimi qeyd edilən bu tarix ilk növbədə XX əsrdə ikinci dəfə əldə etdiyimiz müstəqilliymizin xilası kimi olduqca böyük əhəmiyyət daşıyır. Məhz bu parlaq tarixdən sonra Ulu Öndərin böyük səyləri nəticəsində dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas olan ölkəmiz ardıcıl rifah və tərəqqi yoluna qədəm qoydu. Ulu Öndərin rəhbərliyi ilə qısa zaman ərzində ölkədə aparılan siyasi-iqtisadi islahatlar, peşəkar ordu quruculuğu, bütün bunların fonunda yaranmış əmin-amanlıq, sabitlik, rifah xalqımızın sabaha olan ümidlərini artırdı, onu müdrik və cəsarətli rəhbərinin ətrafında yumruq kimi birləşməyə sövq etdi. Eyni zamanda, xalqın inamından güc alan Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin siyasi və hüquqi təsisatlarını, inkişaf strategiyasını müəyyənləşdirdi. Ulu Öndərin yaratdığı peşəkar və ədalətli idarəetmə sistemi insanlarda dövlətə inamı formalaşdırdı. Bu isə 1990-cı illərin Azərbaycanı üçün olduqca mühüm amil idi. Bağlanılmış neft müqavilələri ilə iqtisadi dirçəlişi təmin olunmuş ölkəmizdə ilk və demokratik seçki təcrübəsinin əsası qoyuldu, vətəndaş cəmiyyətinin inkişafı üçün mühüm islahatlar həyata keçirildi. Ölkəmiz dünya dövlətləri, o cümlədən qonşu ölkələrlə əlaqələrini formalaşdırdı, müstəqil Azərbaycanın dünya birliyinə inteqrasiyası prosesi uğurla həyata keçirildi.

Beləliklə, Ümummilli lider Heydər Əliyev qurtuluş missiyasını xalqın hərtərəfli dəstəyi, müdrik rəhbərə olan sonsuz inamı və etibarı sayəsində uğurla gerçəkləşdirdi, xalqımızı, dövlətimizi ən böyük bəlalardan xilas etdi. Eyni zamanda, müdrik rəhbər bu missiyası ilə dövlətimizin rəmzinə çevrildi ki, bu da tarixdə nadir hallarda baş verir. Məhz bu əvəzsiz xidmətlərinə görə müasir Azərbaycanın dövlətçilik tarixi dedikdə, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş unudulmaz liderimiz Heydər Əliyevi xatırlayırıq. Ulu öndər Heydər Əliyev dünya tarixinin nadir şəxsiyyətlərindəndir ki, bu insanların zəngin irsi hər zaman araşdırılır, öyrənilir, ən yaxşı nümunələr kimi təbliğ olunur.

Azərbaycan dövlətini məhv olmaqdan xilas edən, onun hərtərəfli rifahına nail olan ulu öndər Heydər Əliyevin ən böyük arzusu 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış özbaşınalıq şəraitində işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi idi. Ümummilli lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 10 il ərzində hər an bu problemin ədalətli həllinə çalışmış, Qarabağla nəfəs almış, öz yurdlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin qayğısına qalmışdır. Eyni zamanda, öz dədə-baba yurdlarından qovulmuş soydaşlarımız məhz Ulu Öndərin siyasətinə inanaraq əvvəl-axır yurdlarına dönəcəklərinə əmin olmuş, bu sonsuz inamın əhval-ruhiyyəsi, müsbət ovqatı ilə uzun illər ağır və məşəqqətli həyatlarına dözmüşlər.

2003-cü ildə xalqın yüksək etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ulu Öndərimizin xilaskarlıq, qurtuluş, tərəqqi və rifah missiyasını uğurla davam etdirdi, ölkəmizi daha da qüdrətləndirdi. Əsası Ulu Öndər tərəfindən qoyulan siyasi idarəçilik sistemi inkişaf etdirildi, balanslaşdırılmış siyasət yürüdən dövlətimiz dayanıqlı və davamlı rifaha nail odu. Ölkəmiz dünya birliyi, inkişaf etmiş ölkələr tərəfindən etibarlı tərəfdaş kimi qəbul olundu.

Azərbaycanı günbəgün qüdrətləndirən Prezident İlham Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan və tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi ilə layiqli davamçısı olduğu Ulu Öndərin ən böyük arzusunu gerçəkləşdirdi, tarixi bir missiyanı həyata keçirdi. Dahi lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı milli qurtuluş savaşı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi sayəsində Qarabağın işğaldan qurtulması ilə özünün zirvəsinə çatdı.

Qüdrətli dövlətimiz, qədirbilən xalqımız ikinci ildir ki, xalqımızın taleyini dəyişmiş 15 İyun - Milli Qurtuluş Gününü daha yüksək əhval-ruhiyə və coşqu ilə qeyd edir. Bu gün - ərazi bütövlüyünü bərpa etmiş, azad Qarabağda üçrəngli bayrağını ucaltmış, milli qurtuluşdan işğal altındakı torpaqlarımızın qurtuluşuna qədər şərəfli yol keçmiş müstəqil Azərbaycan dövləti daha qüdrətli, Azərbaycan vətəndaşı daha qürurludur.

Xalqımızın taleyini dəyişən, onu tərəqqiyə və rifaha istiqamətləndirən bu tarixi günün 29-cu ildönümündə Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasını bir daha dərindən dərk edir, onu sonsuz sevgi və ehtiramla yad edirik. Xoşbəxt xalqıq ki, müstəqilliyimizin memarı, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, müdrik rəhbərin siyasi kursuna sədaqətin simvolu möhtərəm cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz günbəgün daha da inkişaf edir. Dünyada nüfuzu hər gün artan, onunla hesablaşmağa artıq hər kəsi vadar edən müstəqil Azərbaycan dövləti öz gücü, potensialı, qədirbilən xalqımızın dəstəyi ilə azad Qarabağı yenidən cənnətə çevirir. Müstəqil Azərbaycanın 1993-cü ilin 15 iyunundan başlayan Qurtuluş yolu azad Şuşaya doğru uzanan tarixi Zəfər yolu ilə davam edir.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*AZƏRTAC*
*15.06.2022*

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Son zəng"

***İyunun 14-də Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyində "Son zəng" tədbiri keçirilib.***

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Vətənimizin azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev məzunları, onların valideynlərini, müəllimləri təbrik edib. Rektor bildirib ki, "Gənc istedadlar" liseyinin əsas vəzifəsi Azərbaycanın ali məktəbləri, o cümlədən BDU üçün istedadlı gənclər yetişdirməkdən ibarətdir. Elçin Babayev məzunlara uğurlar arzulayıb: "Qüdrətli Azərbaycanın gələcəyi sizin çiyinlərinizdədir. Bu isə böyük məsuliyyətdir. Həmişə ölkəmizin, Bakı Dövlət Universitetinin və "Gənc istedadlar" liseyinin adını yüksəklərə qaldırın".





Daha sonra rektor Elçin Babayev məzunlardan 56-cı Beynəlxalq Mendeleyev Olimpiadasının gümüş mükafatçısı Nəriman Şirinliyə və Avropa Fizika Olimpiadasının bürünc medalçısı Rəfsan Həbibullayevə hədiyyələr təqdim edib.

Liseyin direktoru Arif Bağırov da məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. Direktor bildirib ki, bu il liseyi 65 məzun bitirir. Onlardan 41 nəfəri Azərbaycan, 24 nəfəri rus bölməsinin məzunudur. Bu il "Sabahın alimləri" müsabiqəsində şagirdlərdən 3-ü qızıl, 5-i gümüş, 3-ü bürünc medal qazanaraq ölkə birincisi olublar. I yeri tutan 3 layihə 4 şagirdlə ölkəmizi ABŞ-da keçirilən ISEF beynəlxalq müsabiqəsində təmsil edib. Liseyin şagirdləri Beynəlxalq Mendeleyev Olimpiadasında, Avropa Fizika Olimpiadasında, Respublika fənn olimpiadalarında önəmli yerlər tutublar.

Liseyin Riyaziyyat müəllimi Haqverdi Tapdıqov, əvvəlki illərin məzunu Güllü Qəhrəmanova , valideyn Sübhan Namazov, məzunların sinif rəhbərləri Günay Məmmədova, Reyhan Ramazanova, Yeganə Qəhrəmanova, Sənay Hüseynli və Günay Səmədova da çıxışlarında məzunları təbrik edib, onlara tezliklə tələbə adı qazanmağı arzulayıblar.

Tədbir şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU BMT-nin beynəlxalq elmi tədbirinə ev sahibliyi edəcək

***2022-ci il 31 oktyabr - 4 noyabr tarixlərində BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universiteti tərəfindən "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer üzrə BMT/Azərbaycan işçi seminarı" ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") adlı beynəlxalq tədbir keçiriləcək.***

Bakı şəhərində keçiriləcək yüksək səviyyəli tədbirə Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) də dəstək verəcək.

Son illər Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin inkişafına, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə kadr hazırlığı önəmli rol oynayır. Qeyd olunmaldır ki, Beynəlxalq Kosmik Hava Təşəbbüsü (The International Space Weather Initiative - ISWI) kosmik hava məlumatlarının əldə edilməsində zəruri sayılan cihazların quraşdırılmasına, həmin məlumatların təhlilinə və alınan nəticələrin digər rəqəmsal elmi məlumatlarla əlaqələndirilməklə analizinə xidmət edən beynəlxalq əməkdaşlıq proqramıdır. Bu proqram çərçivəsində Bakıda keçiriləcək tədbir Azərbaycanda adıçəkilən sahənin inkişafı üçün geniş imkanlar açacaq, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaradacaq.

5 gün davam edəcək beynəlxalq elmi tədbirin əsas məqsədləri inkişaf etməkdə olan ölkələrdə müvafiq elmi cihazların quraşdırılması və kosmik hava məlumatlarının emalı işlərini davam etdirməklə yanaşı, xüsusi maraq kəsb edən tədqiqat nəticələrinə diqqət yetirmək, eyni zamanda beynəlxalq koordinasiya və əməkdaşlığı yeni səviyyəyə qaldırmaqdan ibarətdir. Beynəlxalq elmi tədbirdə Kosmik Hava və Qlobal Peyk Naviqasiya Sistemləri üzrə elmi, təcrübi biliklərin mübadiləsi və müzakirəsi məqsədilə Azərbaycandan, Avropa, Asiya və Afrika ölkələrindən olan alim və mütəxəssislərin plenar, şifahi və poster məruzələrlə Günəş fizikası, Günəş-Yer əlaqələri, Kosmik Hava Cihazları və Məlumatlar Bazası, Kosmik Havanın Modelləşdirilməsi, Qlobal Naviqasiya Peyk Sistemlərinə Kosmik Hava Təsirləri, Geosfer, Maqnitosfer-İonosfer-Termosfer əlaqələri, Milli Kosmik Hava Proqramları və Tədqiqatları, Təhsil və Təcrübə proqramları üzrə çıxışları, həmçinin, yerli və xarici elmi təşkilatların əməkdaşlarının və ali təhsil müəssisələrindən təhsilalanların dinləyici qismində iştirakları nəzərdə tutulur.

# BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və jurnalistlər imtahan sessiyasının gedişini izləyiblər



***İyunun 21-də Bakı Dövlət Universitetinin İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələrinin iştirakı ilə yaz semestrinin imtahan sessiyasının gedişatı izlənilib.***



Qonaqlara sessiyanın təşkili və gedişatı barədə məlumat verilib. Bildirilib ki, BDU-da iyunun 3-dən başlayan 2021-2022-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası iyulun 1-dək davam edəcək. Bu gün 220 qrup üzrə 5000-dən çox tələbə imtahan verir.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edir.

Sonra İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri ayrı-ayrı auditoriyalarda imtahan prosesini müşahidə edib, tələbələrin imtahanların gedişinə münasibətləri ilə maraqlanıblar.

# BDU alimlərinin məqaləsi impakt faktorlu jurnalda çap olunub

Bakı Dövlət Universitetinin Sənaye Kimyası və Mikrobiologiya və Virusologiya elmi-tədqiqat laboratoriyalarının əməkdaşları Ələkbər Hüseynzadə, Ülviyyə Həsənova, Aygün İsrayılovanın həmmüəllif olduqları "9-fenantrenkarboksialdehid əsasında tiodihidropirimidin törəməsinin sintezi, kristal quruluşu, Hirşfeld səth, in siliko və antibakterial tədqiqatları" adlı məqalə impakt faktorlu "Journal of Molecular Structure" jurnalında (İF=3.196, Q3) çap olunub. Tədqiqat işi 9-fenantrenkarboksialdehid əsasında yeni dihidropirimidinin Bijinelli reaksiyası şəraitində sintezi və onun bioloji aktivliyinin tədqiqinə həsr olunub. Birləşmənin quruluşu Nüvə Maqnit Rezonans (NMR) və kütlə-spektroskopiya (mass) üsulları ilə tədqiq olunub.

Bundan əlavə, qeyd olunan birləşmənin monokristalları alınıb. Onlar rentgen şüalarının difraksiyası üsulu (SC-XRD) və Hirşfeld səth analizi metodları ilə də tədqiq edilib və kristal quruluşda müxtəlif qeyri-kovalent əlaqələr müşahidə olunub. Bioloji aktivlik S. aureus, E. coli, A. baumannii, P. aeruginosa, və K. pneumonia bakteriyalarına qarşı tədqiq edilib və müsbət nəticələr qazanılıb. Həmçinin, birləşmənin aktivliyi məlum antibiotiklərin (sefotaksim və seftriakson) aktivliyi ilə də müqayisə edilib və sintez olunan birləşmənin həmin antibiotiklərlə müqayisədə daha aktiv olduğu müəyyənləşib. Bioloji aktivliyi izah etmək üçün in siliko tədqiqatlar da yerinə yetirilib.

# "Azərbaycan Respublikası və beynəlxalq təşkilatlar arasında əməkdaşlıq: milli qurtuluşdan müasir inkişafa doğru" adlı dəyirmi masa

***İyunun 14-də Hüquq fakültəsində Milli Qurtuluş Gününə və Azərbaycan Respublikasının UNESCO-ya üzvlüyünün 30 illiyinə həsr olunmuş "Azərbaycan Respublikası və beynəlxalq təşkilatlar arasında əməkdaşlıq: milli qurtuluşdan müasir inkişafa doğru" mövzusunda dəyirmi masa keçirilib.***

Tədbirdə Hüquq fakültəsinin dekanı Zaur Əliyev tariximizə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Gününün əhəmiyyətini, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın dərin ictimai-siyasi və iqtisadi böhrandan xilası və davamlı inkişafın təməllərinin qoyulduğunu diqqətə çatdırıb. Zaur Əliyev qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz Vətən müharibəsində parlaq Qələbə qazanaraq torpaqlarımızı işğaldan azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub, beləliklə də Azərbaycanı bütöv görmək istəyən Ulu öndər Heydər Əliyevin ən böyük arzusu həyata keçirilib.

Zaur Əliyev Azərbaycan və UNESCO arasında əməkdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini, ölkəmizin iştirakçısı olduğu bütün beynəlxalq platformalarda dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində etibarlı tərəfdaşa çevrildiyini bildirib. Ölkəmizin UNESCO ilə əməkdaşlığının inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın misilsiz xidmətlərini xüsusi vurğulayan Zaur Əliyev işğaldan azad edilmiş ərazilərimizdəki abidələrin mənşəyindən asılı olmayaraq bərpasının dövlətimiz üçün prioritet təşkil edən məsələlər sırasında yer aldığını və bu sahədə Heydər Əliyev Fondunun böyük layihələr icra etdiyini diqqətə çatdırıb.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi, professor Lətif Hüseynov "Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsində təhsil hüququ", Milli Məclisin deputatı, professor Nizami Səfərov "Müharibə zamanı mədəni sərvətlərin qorunması rejiminin pozulması: müharibə cinayəti və ya mədəni soyqırımı?", UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının nümayəndəsi Eltay Aslanov "Azərbaycan Respublikası ilə UNESCO arasında əməkdaşlığın başlıca istiqamətləri", Avropa Şurasının Bakı Ofisinin nümayəndəsi Pərvanə Bayramova "Avropa Şurasının Hüquq fakültəsi ilə əməkdaşlığı", Mediasiya Şurası İdarə heyətinin sədri Nadir Adilov "Mübahisələrin alternativ həlli yeni trend kimi: BDU-nun Hüquq fakültəsinin mediasiya islahatlarında rolu", Azərbaycan Respublikası Təhsil nazirinin müşaviri Nicat Məmmədli "Təhsil beynəlxalq münasibətlərdə yumşaq güc aləti kimi: Azərbaycanın təhsil sahəsində beynəlxalq əməkdaşlığı", Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəis müavini Elnur Aslanov "Azərbaycan Respublikasının daxili işlər orqanları və beynəlxalq təşkilatlar: əməkdaşlığın perspektivləri", Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri professor Əmir Əliyev "İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının fəaliyyətinin əsas istiqamətləri", Hüquq fakültəsinin Hüquq klinikasının rəhbəri, hüquq üzrə elmlər doktoru Turqay Hüseynov "Azərbaycan və Avropa İttifaqı: inkişaf perspektivləri", Hüquq fakültəsinin IV kurs tələbəsi, Tələbə elmi cəmiyyətinin sədri Ceyhun Xəlilov "Tələbə elmi cəmiyyətinin Hüquq fakültəsinin inkişafında rolu" mövzularında məruzə ilə çıxış ediblər.

Tədbirin sonunda iyunun 6-8-də Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi tərəfindən təşkil edilmiş Beynəlxalq Humanitar Hüquq üzrə məhkəmə müsabiqəsində birinci yerə layiq görülmüş Hüquq fakültəsinin IV kurs tələbələri Məryəm Atakişiyeva, Röya Məlikzadə və Kənan Qayıbov Hüquq fakültəsinin dekanı Zaur Əliyev tərəfindən təşəkkürnamə ilə təltif ediliblər.

# BDU-nun bir qrup əməkdaşı Şuşaya səfər edib




***İyunun 10-da Bakı Dövlət Universitetinin (BDU) rəhbərliyi, professor-müəllim və inzibati heyətinin bir qrupu Şuşaya səfər edib.***

Səfərin əsas məqsədi "Şuşa ili" çərçivəsində Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun işğaldan azad etdiyi Şuşanı ziyarət etmək, şəhərin tarixi-mədəni irsi, işğal dövründə məruz qaldığı dağıntılar, hazırda icrasına başlanılan yenidənqurma və abadlıq-quruculuq işləri ilə tanış olmaqdır.

BDU əməkdaşları Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəllərini, Qala divarlarını, Yuxarı Gövhər Ağa məscidini, Üzeyir Hacıbəyli bağını, Vaqif məqbərəsini, Bülbülün ev muzeyini, ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış digər mədəniyyət abidələrini, Cıdır düzünü ziyarət ediblər.

Səfər iştirakçıları Vətən müharibəsində şəhid olmuş qəhrəmanların ruhlarını ehtiramla yad edib, qazilərimizə və hazırda xidmətdə olan hərbçilərimizə cansağlığı arzulayıblar.

BDU əməkdaşlarının Şuşaya səfərləri mütəmadi davam edəcək.

# Ən müqəddəs səfər - ŞUŞA SƏFƏRİ

## *Bir gün deyilsəydi ki, sehrli aləmlər təkcə nağıllarda olmur, inanmazdım. Ta ki iyunun 9-na qədər...*

***Bakı Dövlət Universitetinin Şuşaya səfər edən kollektivi arasında mənim də olmağım həm qürurverici, həm də sevindirici idi. Şuşaya səfər edəcəyimizi eşidəndə çox kövrəldim, sonra isə gözümün qarşısında 44 günlük müharibə səhnələri canlandı, qulağımda müzəffər ordunun Ali Baş Komandanı cənab İlham Əliyevin "Əziz Şuşa, sən azadsan!" sözləri cingildədi.***

Otağımda Şuşa sevgisinə görə xarıbülbül və Şuşa qalasının maketini qoymuşam. Hər dəfə yorğun olanda Şuşa simvollarına baxıb xəyalən oranı səyahət edirdim. Bu dəfə isə real olaraq gedəcəkdim müqəddəs məbədə... İçim içimə sığmır, sehrli bir xalçanın tərkində müqəddəs şəhərə tez bir zamanda qədəm qoymaq istəyirdim.

Səhər saat 5:00... Şuşanın qoxusu burnuma gəlirdi sanki... Bu qoxunu 5-6 saatdan sonra doyadoya içimə çəkəcəkdim. Hər kəs vaxtından da tez avtobusun gedəcəyi yerə toplaşmışdı. Sanki hər birimiz bu "görüş"ə tələsirdik. Avtobus yola düşdü. Bu səyahət səbəbilə hər birimizin üzünə qəribə bir nur enmişdi, sanki Şuşaya addımımızı qoymaq üçün biz özümüz arınmalı, yalnız xoş niyyətlərlə qəlbimizi doldurmalı idik. Çox şən əhval-ruhiyyədə idik... Füzuliyə çatana qədər... Qəfildən dodaqlarda gülüş dondu; çəpərlənmiş ərazilər, "Minalanmış sahələr" sözləri vahimələndirdi hər kəsi... Artıq hər kəs kövrəlmişdi. Hönkürtü səsləri də eşidilirdi. Gözlərimə qaranlıq çökmüşdü: soyuqdan deyil, mənzərənin xofundan titrəyirdim.

30 illik göz dağı, 30 illik soyqırım, 30 illik faciə...

Torpaqdan heyf çıxmaq, torpağa əzab vermək insan işi deyil... Heç bir canlı bunu etməz... Bəxtimizə belə bir düşmən yazılıb... 30 illik məhbusluq, əsirlik yaşamışdı bu torpaqlar. Burnuma qan qoxusu gəlirdi. Əsir əzablarına şahid, şəhidlərə məzar olan bu torpaqlardan keçib çatdıq Şuşaya...

Ömrümün bu çağına kimi bir çox yerlərə səyahət etmişdim. Amma heç biri bu səyahəti əvəz edə bilməzdi. Sanki sehrli bir aləmə qapılar açıldı, hər birimizi şəhərin sehri tilsimə saldı. Hələ ömrümdə bu cür yaşıllıq görməmişdim. Sanki dünyada yaşılın bu çaları təkcə Şuşada idi. Sanki belə bir qoxu təkcə Şuşanın havasından gəlirdi. Şəhidlərin qanı, qazilərimizin canı, hərbçilərimizin əziyyəti ilə düşmən tapdağından xilas olan bu torpaqlar sanki azərbaycanlıları qarşılamaqdan məmnun idi. Xarıbülbüllərin məkanı köksünü bizə qürurla açmışdı. Biz də qürur hissi ilə atırdıq hər addımımızı. Hər addım atdıqca gözümdə səhnələr canlanırdı. İnsan övladının malik olduğu bütün duyğuları eyni anda yaşayırdım: Bir vaxtlar düşmən tapdağında inləyən torpaqlarımızın fəryadını eşidib əsəbləşir, Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin Xarıbülbül festivalında çıxışını, çay süfrəsi ətrafında Mehriban xanım Əliyeva ilə Şuşa haqqında söhbətlərini gözümdə canlandırıb gülümsünürdüm. Mədəniyyət abidələrimizi - Şuşa Qala divarlarını, Vaqifin məqbərəsini, Bülbülün ev muzeyini, Cıdır düzünü gəzdikcə tariximizin itmiş 30 ilinə görə heyfslənirdim.

İndi azad, rahat şəkildə buralarda gəzmək, həqiqətən də, möcüzə idi. Bu möcüzələri yalnız sehrli nağıllarda oxumuşdum. İndi isə möcüzələr diyarına - sehrli aləmə səyahət edirdim. Artıq vaxt-vədə yetişmişdi. Hər birimiz həvəssiz şəkildə avtobuslara mindik. Şuşadan ayrılmaq doğma insandan ayrılmaq kimi bir şey idi. Müqəddəs şəhərimizlə vidalaşmadım... Bir çox yeni layihələri Şuşada icra etmək diləyilə "hələlik" dedim.

Yenidən görüşənədək, Əziz Şuşam!!!

**Səhər Orucova**
Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor.

# Milli Gimnastika Arenasında BDU-nun Məzun Günü keçirilib

***İyunun 30-da Milli Gimnastika Arenasında Bakı Dövlət Universitetinin Məzun Günü keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərin əziz xatirəsi anılıb.

Tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara uğurlar arzulayıb: "Sizinlə birlikdə BDU-nun növbəti Məzun Gününü Bakının təkrarsız məkanlarından birində - Milli Gimnastika Arenasında qeyd etmək unudulmaz hadisədir. Bu gün Siz rəngarəng tələbəlik illəri ilə vidalaşır və yüksəkixtisaslı gənc mütəxəssis, ölkəmizin böyük ümidlər bəslədiyi layiqli vətəndaşlar kimi ömür yolunuzun yeni mərhələsinə qədəm qoyursunuz. Bu gündən etibarən qarşınızda yeni üfüqlər açılır. Siz şanlı tariximizin qızıl hərflərlə yazıldığı bir dövrdə məzun olursunuz. İnanırıq ki, bu yolda bir övlad kimi valideynlərinizin, BDU ailəsinin layiqli üzvü kimi müəllimlərinizin, sadiq vətəndaş kimi dövlətimizin sizə bəslədiyi ümidləri doğruldacaq, ölkəmizin inkişafına dəyərli töhfələr verəcəksiniz. Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təşəbbüsü və əməli dəstəyi ilə təhsilin inkişafı üçün atılan addımlar, yüksəkixtisaslı insan kapitalının formalaşdırılması istiqamətində görülən işlər ölkəmizin gələcəyi üçün ən yaxşı sərmayə və təminatdır. Siz bu prosesin ən fəal iştirakçıları olun! Əziz məzunlar, qəti əminəm ki, tələbəlik həyatınız Müzəffər Ali Baş Komandan İlham Əliyevin və qüdrətli Ordumuzun xalqımıza yaşatdığı böyük Zəfər ilə yaddaşınıza əbədi həkk olacaq. Fəxr edirik ki, işğaldan azad edilmiş doğma torpaqlarımızda üçrəngli Zəfər bayrağını ucaldanlar sırasında universitetimizin tələbə və məzunları, sizin həmyaşıdlarınız da var. 44 günlük Vətən müharibəsində gənclərimizin canı və qanı hesabına əldə edilmiş Qələbəyə Bakı Dövlət Universitetinin 200-ə yaxın məzun və tələbəsi imza atıb, onlardan 19 nəfəri şəhidlik zirvəsinə yüksəlib.

Vətənimiz Azərbaycanın daha da çiçəklənməsində, xalqımızın rifahının yüksəldilməsində, dövlətçiliyimizin möhkəmləndirilməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsində fəal iştirak etmək, Vətən və xalq sevgisi ilə yaşamaq, yaratmaq, doğma torpaqlarımızda, xüsusən Qarabağımızda gedən quruculuq, yenidənqurma işlərinə töhfələr vermək sizin əsas missiyanızdır. 103 illik zəngin tarixə malik, təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində yeni tipli ilk ali təhsil ocağı kimi tanınan Bakı Dövlət Universitetinin məzunları sırasında illər boyu elmə, mədəniyyətə, siyasətə layiqli töhfələr verən dahi və görkəmli şəxsiyyətlər çox olub. Onların hər birinin həyatı, yaradıcılığı, xalqa və dövlətə sədaqəti, peşəkar mütəxəssis kimi fəaliyyəti sizə örnək olmalıdır. Həmişə fəxr edin ki, siz Ümummilli liderimiz Heydər Əliyevin məzun olduğu universitetin məzunlarısınız".







Rektor vurğulayıb ki, BDU fəaliyyət göstərdiyi dövr ərzində 200 min nəfərədək mütəxəssis və yüksəkixtisaslı kadr yetişdirib. 103 il bundan əvvəl 2 fakültə, 44 nəfərlik professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan Universitetdə hazırda 16 fakültə, 120 kafedrada ali təhsilin bütün səviyyələrində 25 minə yaxın tələbə təhsil alır, 3 minə qədər əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. BDU Azərbaycan xalqının övladlarına ali təhsil vermək, vətənimizin dünya elm və mədəniyyət məkanında layiqli yer tutmasını təmin etmək kimi ən uca missiyasını şərəflə yerinə yetirir. Hazırda universitetdə tədris tarixi ənənələrin və modern dünya təcrübəsinin vəhdəti şəklində müasir, innovativ təlim texnologiyaları əsasında qurulur, elmi-tədqiqat işlərinin məzmunu günün tələblərinə uyğun şəkildə yenilənir, beynəlxalq akademik əlaqələr və ölkədaxili əməkdaşlıq daha da inkişaf etdirilir, struktur islahatları həyata keçirilir. Dünyanın bir sıra aparıcı universitetləri ilə birgə ikili proqram əsasında kadrlar hazırlanır. Bütün bunların nəticəsidir ki, milli təhsil tariximizdə ilk dəfə olaraq məhz Bakı Dövlət Universiteti "Times Higher Education" nüfuzlu beynəlxalq reytinq siyahısında yer alan ilk Azərbaycan ali məktəbi olub. BDU əsas elm və təhsil reytinqlərində ölkə üzrə liderliyini qoruyub saxlayır. BDU bundan sonra da beynəlxalq və milli əmək bazarında rəqabətədavamlı, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksək ixtisaslı mütəxəssislər hazırlanmasına, ölkəmizin yüksələn xətlə inkişafına dəyərli töhfələr verəcək.

Sonra Universitet tələbələrinin ifasında BDU-nun himni səsləndirilib.



Məzunları təbrik edən təhsil naziri Emin Əmrullayev bildirib ki, BDU Azərbaycan təhsil tarixinin ən vacib flaqmanıdır: "BDU yalnız burda oxuyanların deyil, hər bir azərbaycanlının universitetidir. Çünki Azərbaycanın ali təhsil tarixi məhz bu universitetlə başlayır. Siz bu ali təhsil ocağında elm, biliklə yanaşı, əsl vətəndaş, ləyaqətli və dürüst insan kimi vacib olan dəyərlərə yiyələnmisiniz. Siz Zəfər çalmış xalqın gənclərisiniz, "Şuşa ili"ndə məzun olursunuz. İşğaldan azad edilmiş torpaqlarımızda hər sahə üzrə yüksək ixtisaslı kadrlara böyük ehtiyac var. Əminəm ki, BDU məzunlarının bir hissəsinin əmək fəaliyyəti məhz həmin torpaqlarla bağlı olacaq. Hər birinizə doğma Azərbaycanımıza layiqli vətəndaş olmağı arzu edirəm".




Gənclər və idman naziri Fərid Qayıbov əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs edib. O, BDU-nun Azərbaycanın inkişafına mühüm töhfələr verdiyini deyib, Ulu öndər Heydər Əliyevin bu ali məktəbin məzunu olduğunu qürur hissi ilə xatırladıb.

BDU-nun Himayəçilər Şurasının üzvü, BP-nin Yaxın Şərq və Xəzər ölkələrində kommunikasiya və təşviqat üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Vətən Müharibəsi dövründə 1-ci korpusun qərargah rəisi, "Vətən uğrunda", "Hərbi xidmətə görə", "Suqovuşanın", "Ağdamın azad edilməsinə görə" medalları ilə təltif edilən, ehtiyatda olan polkovnik Məhərrəm Həmidov, Milli Məclisin və BDU-nun İctimai Nəzarət Şurasının üzvü Əminə Ağazadə, Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova, Avropa çempionu olan milli mini-futbol komandamızın kapitanı, Tarix fakültəsinin builki məzunu Ceyla Həsənzadənin atası Ramin Həsənov çıxışlarında məzunları təbrik edib, onlara şəxsi və iş həyatlarında uğurlar arzulayıblar.

Daha sonra BDU haqqında videoçarx nümayiş etdirilib. Rektor Elçin Babayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən 33 məzuna sertifikat və hədiyyələr təqdim ediblər. Sertifikatlar Milli Gimnastika Arenasına dronlarla gətirilib.




Xatirə lövhəsinə ən yüksək ÜOMG olan BDU tələbələrinin adları həkk edilib.

Tədbir konsert proqramı ilə davam edib.

# Görkəmli alim, əsl ziyalı - Şirməmməd Hüseynov

## *24 iyun - görkəmli alim, Əməkdar jurnalist, mətbuat tariximizin və Xalq Cümhuriyyətinin ən mahir araşdırıcısı Şirməmməd Hüseynovun vəfatının ildönümüdür*

***Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olub. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirib, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxuyub. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil alıb.***

Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olub, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb.

1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olub, 1988-ci ildən ömrünün sonunadək həmin kafedranın professoru vəzifəsində çalışıb.

Elmi fəaliyyətini, əsasən, Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərib. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti var.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəldib. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olub. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri Bakı Dövlət Universitetində, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. O, bir sıra mükafatlara layiq görülüb, Azərbaycan Respublikasının "Şərəf" ordeni ilə təltif olunub.

Görkəmli alim 2019-cu il iyunun 24-də ömrünün 95-ci ilində vəfat edib.

Unudulmaz pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaq.

# "Şanlı Ordumuz qürurumuzdur" adlı dəyirmi masa

***İyunun 24-də Tarix fakültəsinin təşkilatçılığı ilə 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr olunmuş "Şanlı Ordumuz qürurumuzdur" adlı dəyirmi masa keçirilib.***



Tədbirdə çıxış edən BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov bildirib ki, Ümummilli lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, tarixi varislik ənənəsinə uyğun olaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra ölkəmizdə milli hərbi təhsil sisteminin əsası qoyulub, Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılıb. Müstəqil Azərbaycanın ordu quruculuğu Ümummilli liderin adı ilə bağlıdır. Dahi şəxsiyyət 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalayıb. 20 avqust 2001-ci il tarixli fərmana əsasən isə, Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılıb. Silahlı Qüvvələrin quruculuğu, təkmilləşdirilməsi və inkişafı prosesi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib, Azərbaycan ordusunun döyüş qabiliyyəti, maddi-texniki təchizatı gücləndirilib. Məhz bu tədbirlər nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz 44 günlük Vətən müharibəsində düşmən üzərində tarixi zəfər çalıb, işğal olunmuş ərazilərimizi düşməndən azad edib.

Dəyirmi masada Sumqayıt Dövlət Universitetinin professoru Şirxan Səlimov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, dosent Naibə Əhmədova, Tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Mehman Abdullayev, Vətən müharibəsi qazisi, Tarix fakültəsinin məzunu İsrail Əzimov, Tarix fakültəsinin IV kurs tələbəsi Qara Kərimov çıxış edərək Azərbaycanda milli ordu quruculuğunun tarixi kökləri, mərhələləri, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbənin əhəmiyyəti, Qarabağın 30 illik işğaldan azad olunmasının Azərbaycan tarixində yeri və rolu ilə bağlı fikirlərini bölüşüblər.

Tədbirin sonunda "26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü"nə həsr olunmuş videoçarx nümayiş olunub, Vətən müharibəsi qazilərinə Tarix fakültəsinin professor-müəllim heyəti tərəfindən hazırlanmış "Qarabağ Azərbaycandır. Zəfər epopeyası" adlı kollektiv monoqrafiya təqdim olunub.

# Ustad acısı

## *BDU Jurnalistika fakültəsi Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru mərhum Nəsir Əhmədlinin xatirəsinə dərin ehtiramla*



***Elə ustadlarımız var ki, onlar müasir Azərbaycan jurnalistikasında özünəməxsus dəyərə sahibdirlər. Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Qulu Xəlilov, Tofiq Rüstəmov, Famil Mehdi və adlarını bu sıraya əlavə edə biləcəyimiz neçə böyük ustadımız bizi biz edən şəxsiyyətlərimizdir. Məhz onların bizim üçün açdığı yoldur, bu gün qürurla, fəxrlə, alnıaçıq, üzüağ addımladığımız bu yol. Nəsir Əhmədli də məhz bu ustadların sırasında duran bir müəllimimiz idi. Bir neçə gün əvvəl onu da itirdik...***

İtkisi ağırdır... Hər birimiz üçün... Ondan dərs alanlar üçün də, özünü mənəvi cəhətdən onun tələbəsi hesab edənlər üçün də...

Amma bu itki yalnız ondan dərs almış bir tələbənin hiss etdiyi, etməli olduğu acıdan ibarət deyil. Bu itki həm də "daha bir böyüyümüzü itirdik" acısıdır. Məsləhət almaq istədikdə ürəklə müraciət edəcəyimiz ustadlarımız getdikcə azalır. Bu itkilərdən doğan acıları hər keçən gün daha artıq hiss edirik...

Nəsir müəllimin Azərbaycan jurnalistikasındakı xidmətləri çoxdur. Amma xüsusilə vurğulamaq istərdim ki, ədəbi dil problemləri, nitq mədəniyyəti ilə bağlı gördüyü işlərlə bir məktəb yaratdı. Bu sahədə Nəsir müəlim sözün həqiqi mənasında fundamental işlər ortaya qoydu. Bir faktı qeyd edim ki, Nəsir müəllim "Jurnalistin nitq mədəniyyəti" dərsliyini ilk dəfə ortaya qoyan müəllimimiz olub. İndinin özündə belə əgər biz professional jurnalistikadan, ədəbi dil, nitq mədəniyyəti problemindən danışırıqsa birmənalı şəkildə Nəsir müəllimə istinad edirik.

Nəsir müəllim orta və yeni nəsil jurnalistlərin yetişməsində müstəsna xidməti olmuş bir şəxsiyyətdir. Adlarını çəksək deyə bilərik Qulu Məhərrəmli, Rəşad Məcid, Tahir Aydınoğlu, Rafiq Həşimov, yeni nəsildən Rövşən Məmmədov, Radiq İsmayılov, Nəmənd Rüstəmov və s. Nəsir müəllimin o nəsillərin yetişməsində böyük xidmətləri olub. Onun tələbələri ilə ünsiyyəti özü bir məktəbdir: Tələbələrlə münasibət qurması, onlarla davranışı, yol açması. Elə tələbələrimiz olub ki, şəxsi dərdlərini belə onunla bölüşüblər. Elə adını çəkdiyim bizim peşəkar jurnalistlərin bir çoxunu praktik nöqteyi-nəzərdən Azərbaycan jurnalistikasına gəlişlərinin səbəbkarı da Nəsir müəllim olub. Çünki özünün də jurnalistikaya gəlməsinin səbəbkarı böyük ustadları olub. Nəsir müəllim də bu ənənəni həm yaşadıb, həm də bizlərə- öz tələbələrinə aşılayıb.

Nəsir müəllim bizim korifeylərimizin, ustadlarımızın estafetini sözün həqiqi mənasında uğurla və şərəflə devr almış bir insan idi. Onu nəsillərin arasında həm də bir körpü kimi xarakterizə edərdim: "Orta və gənc nəsil arasında olan bir körpü".

***Allah sənə rəhmət etsin, ustad! Adın ürəklərimizə yazılıb!***

***Başımız sağ olsun!***

***Vüqar Əliyev***
*BDU Jurnalistika fakültəsinin dekanı, Nəsir Əhmədlinin tələbəsi*

525-ci qəzet
12.06.2022

# Erasmus+ KA2 layihəsi çərçivəsində BDU tələbələri ilə görüş

***İyunun 10-da** Bakı Dövlət Universitetinin tələbələri ilə "MAGNUS - Partnyor universitetlərdə mobil tətbiqlər və kompüter oyunları üzrə magistr tədris proqramlarının yaradılması" Erasmus+ KA2 layihəsi çərçivəsində görüş keçirilib.*



BDU 2019-cu ilin yanvar ayından Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linköping Universiteti, Böyük Britaniyanın Derbi Universiteti, Estoniyanın Tallin Universiteti və Portuqaliyanın Tomar Universiteti, həmçinin Rusiya Federasiyasının Həştərxan Universiteti, Voronej Universiteti, Cənubi Federal Universiteti, Azərbaycan Respublikasının Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Mühəndislik Universiteti tərəfindən birgə icra olunan "MAGNUS - Partnyor universitetlərdə mobil tətbiqlər və kompüter oyunları üzrə magistr tədris proqramlarının yaradılması" Erasmus+ KA2 layihəsində tərəfdaş universitet kimi iştirak etməyə başlayıb.

Sözügedən layihənin məqsədi tərəfdaş universitetlərdə magistratura səviyyəsində "Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı" adlı yeni ixtisaslaşmanın açılması ilə yanaşı, tədris laboratoriyasının təşkil edilməsi, bu sahədə kadr hazırlığıdır. Eyni zamanda Avropa universitetlərinin təcrübəsindən faydalanmaq məqsədilə tərəfdaş ali məktəblərin müəllim və tələbələri üçün İsveç, Böyük Britaniya, Estoniya və Portuqaliyada intensiv təlimlər, Azərbaycan və Rusiyada yay məktəbləri, partnyor universitetlərin müəllim heyəti ilə mübadilə proqramlarının təşkili nəzərdə tutulur.

Görüşdə layihənin rəhbəri, İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri, texnika elmləri doktoru, professor Ələkbər Əliyev, layihənin icrasına cəlb olunan Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Elmi işlər üzrə dekan müavini, dosent Aytəkin Əfəndiyeva, İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müəllimi Pərvin Əlizadə çıxış edərək bildiriblər ki, BDU-da təhsil, elm, sənaye və biznes vəhdətində müxtəlif sahələr üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məsələsi daim diqqət mərkəzindədir. Bu baxımdan beynəlxalq əməkdaşlıq, dünyanın qabaqcıl universitetləri və elmi müəssisələri ilə əlaqələri inkişaf etdirmək və onların təcrübəsindən yararlanaraq elm və təhsil sahəsində innovasiyaların tətbiqinə nail olmaq BDU-nun inkişaf strategiyasında prioritet məsələdir. O cümlədən məruzəçilər təhsil proqramının 120 kreditdən ibarət olması, təhsil müddəti ərzində magistrantlara 21 fənnin tədris olunması və həmin fənlərin tədrisinə yüksək ixtisaslı kadrların cəlb olunması haqqında məlumat veriblər.

Görüşün sonunda "Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı" ixtisaslaşmasının birinci kurs magistrantı Məhəmməd Əhmədov yaradılmış müasir təhsil şəraitindən məmnunluğunu bildirib və tələbələrin bu ixtisaslaşma üzrə təhsillərini davam etmələrini tövsiyə edib.

# BDU tələbələri Dövlət Vergi Xidmətinin Yay Təcrübə Proqramının qrup tapşırıqları mərhələsində

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən tələbələrin bilik, bacarıq və şəxsi inkişafına dəstək məqsədilə keçirilməsi nəzərdə tutulan Yay Təcrübə Proqramına hazırlıqlar davam edir. Proqramda iştirak üçün tələbələr arasında seçimlərlə bağlı Bakı və Mingəçevir şəhərlərində qrup tapşırıqları mərhələsi keçirilib. Bu mərhələdə paytaxt və regionlarda yerləşən ali təhsil müəssisələrinin 160-dək tələbəsi iştirak edib. BDU tələbələri də onların arasındadır.

Qrup tapşırıqları dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in əsas istiqamətlərindən biri olan işğaldan azad edilmiş ərazilərə böyük qayıdış, burada aparılan tikinti-quruculuq işləri üzrə mövzuları əhatə edib. Dövlət Vergi Xidmətinin müşahidəçiləri tərəfindən tələbələrin qrup şəklində bu mövzularda müxtəlif tapşırıq və məsələləri həll etmək, ortaya çıxan suallara aydınlıq gətirməklə həlli yollarını tapmaq və s. bağlı bilik və bacarıqları yoxlanılıb.

Qrup tapşırıqları mərhələsi üzrə seçilmiş tələbələr Dövlət Vergi Xidmətinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində yay düşərgəsində iştirak edəcəklər.

Qeyd edək ki, Dövlət Vergi Xidmətində təşkil olunacaq ilk Yay Təcrübə Proqramı tələbələrin vergi sahəsində nəzəri və praktiki biliklər əldə etməsini, onların vergi xidmətinin işində praktiki iştirakını nəzərdə tutan, həmçinin gələcəkdə vergi orqanlarında karyera qurmaq imkanlarını dəstəkləyən innovativ inkişaf proqramıdır. Layihə tələbələrin şəxsi keyfiyyətlərinin artırılması və karyera yollarında istiqamətlənməsinə yardımçı olacaq. İki hissədən ibarət Yay Təcrübə Proqramının iyulun 15-dən sentyabrın 2-dək keçirilməsi nəzərdə tutulur.

# BDU-da Çankırı Karatekin Universitetinin rektoru Harun Çiftçi ilə görüş

**İyunun 4-də Bakı Dövlət Universitetində Türkiyə Respublikasının Çankırı Karatekin Universitetinin rektoru Harun Çiftçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.**

BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov qonaqları Azərbaycanın ən böyük və ilk universiteti olan BDU, Universitetin strukturu, fakültələri, son illər həyata keçirilən islahatlar, yeni yaradılan Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, ikili diplom proqramları barədə məlumatlandırıb. Bildirib ki, qardaş Türkiyə universitetləri ilə əməkdaşlığın genişləndirilməsi və ikili diplom proqramlarının qəbulu BDU üçün xüsusi önəm daşıyır.



Çankırı Karatekin Universitetinin rektoru Harun Çiftçi isə rəhbərlik etdiyi ali təhsil ocağı ilə bağlı ətraflı məlumat verib. 19 minə yaxın tələbəsi olan Çankırı Karatekin Universitetində 900 azərbaycanlı tələbənin təhsil aldığını xatırladıb. O, BDU ilə əməkdaşlıqda və ikili diplom proqramlarının qəbulunda maraqlı olduğunu vurğulayıb.

Görüşdə BDU və Çankırı Karatekin Universiteti arasında ortaq tədqiqatların aparılması, birgə konfrans, simpoziumların keçirilməsi barədə də müzakirələr aparılıb.

# BDU-da boş qalan professor vəzifələrinə seçkilər keçirilib

***İyunun 22-də** Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib.*

İclasda əvvəlcə BDU Elmi Kitabxanasının 2021-ci il üzrə hesabatı dinlənilib.

Kitabxananın direktoru Nigar İsmayılova Elmi Kitabxananın strukturu, əməkdaşları, kitab fondu haqqında məlumat verib. Qeyd edib ki, Elmi Kitabxananın fondunda 2 135 413 nüsxə sənəd qorunur. Kitabxana fondunun 67,4 faizini elmi, 30,5 faizini tədris ədəbiyyatı, 2,1 faizini mübadilə ehtiyat fondu təşkil edir. 2021-ci ildə kitabxana fonduna 7 204 nüsxə sənəd və 24 adda 9 982 nüsxə qəzet daxil olub. Elmi Kitabxana Azərbaycan ali məktəb kitabxanalarının metodiki mərkəzi statusunu daşıyır və 30-dan artıq ölkədaxili universitet kitabxanası, 40 xarici ölkənin 50-yə yaxın aparıcı kitabxanası ilə beynəlxalq səviyyədə əməkdaşlıq edir. Elmi Kitabxananın elektronlaşdırılması da artıq başa çatmaq üzrədir. Yaxın vaxtlarda oxucular BDU-nun 24 saat fəaliyyət göstərən elektron kitabxanasının xidmətlərindən istifadə edə biləcəklər.

Daha sonra Elmi Şurada BDU üzrə boş olan professor vəzifələrinin tutulması üçün seçkilər keçirilib. Seçkinin nəticələrinə əsasən, BDU-nun 8 fakültəsi üzrə 75 nəfər professor vəzifəsinə təsdiqlənib.



# Azərbaycan-Özbəkistan əlaqələri yeni müstəvidə

***Qardaş Özbəkistan 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəmizlə artıq tarixdə qalmış Qarabağ münaqişəsinin həllində hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib, dəfələrlə beynəlxalq təşkilatlar, ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində dövlətimizin ərazi bütövlüyü ilə bağlı birmənalı mövqeyini qətiyyətlə ifadə edib.***

***Eyni soya, ortaq tarixə və mədəniyyətə, milli adət-ənənələrə malik olan Azərbaycan və özbək xalqları arasındakı dostluq və qardaşlığın kökləri tarixin dərin qatlarına gedib çıxır. Özbəklər hər zaman Azərbaycan ədəbiyyatına, mədəniyyətinə böyük maraq göstərmiş, azərbaycanlı ədiblərin əsərlərindən bəhrələnmişlər.*** Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi mütəfəkkirlər hər zaman özbək ədəbi-mədəni mühitində, ictimai fikrində öyrənilmiş, təbliğ olunmuşdur. Hələ orta əsrlərdən başlayaraq böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin əsərləri özbək dilinə tərcümə edilmiş, özbək ədəbiyyatında və ədəbiyyatşünaslığında Nizami ənənələri xüsusi rol oynamışdır.

***Bu fikirlər Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin "Azərbaycan-Özbəkistan əlaqələri yeni müstəvidə" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.***

Sovet hakimiyyəti illərində türk xalqlarının qarşılıqlı münasibətlərinə yaradılmış maneələrə, siyasi təqiblərə baxmayaraq xalqlarımız arasında əlaqələr davam etdirilib. Özbəkistanla Azərbaycan arasında bu gün özünün yüksək inkişaf səviyyəsinə çatmış ədəbi-mədəni əlaqələr xüsusilə Ulu Öndərimizin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə inkişaf etdirilib. Bu illərdə Azərbaycan və Özbəkistanda qarşılıqlı olaraq teatr günləri, mədəniyyət dekadaları, incəsənət sərgiləri, ədəbiyyat və incəsənət günləri keçirilib, iki qardaş xalqın bir-birinə daha da yaxınlaşması üçün mühüm tədbirlər görülüb. Həmçinin bəhs olunan dövrdə Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Anar, Zəlimxan Yaqub kimi görkəmli mütəfəkkir, şair və yazıçılarımızın əsərləri qardaş Özbəkistanın ədəbi-bədii orqanlarında özbək dilinə tərcümə edilərək çap olunub. 70-80-ci illər ədəbiyyatında qardaş özbək xalqı ilə bağlı bədii nümunələrə də rast gəlinir. Yaradıcılığında türkçülük, turançılıq xəttini xüsusilə ifadə edən Bəxtiyar Vahabzadənin 1980-ci ildə qələmə aldığı "Salam, Özbəkistan" adlı şeiri bu baxımdan olduqca xarakterikdir. Bəxtiyar Vahabzadə haqqında bəhs olunan şeirdə sovet repressiya maşınının təqib və təzyiqlərinə rəğmən türk xalqlarının birliyindən, qardaşlığından, dilimizin, soy-kökümüzün, Vətənimizin bütövlüyündən bəhs edir. Şairin fikrincə, Azərbaycan da, Özbəkistan da hər birimiz üçün Vətəndir, böyük türk dünyasıdır və eyni bədəndə bir candır:



*Biz bir canıq, bir vahidik binadan*
*Bu Vətənə o Vətəndən salamlar.*
*Biz bir yolun yolçusuyuq hər zaman*
*Sənə məndən, mənə səndən salamlar.*

Onu da xüsusi vurğulamaq lazımdır ki, iki ölkə arasında ədəbi-mədəni əlaqələrin inkişafına zaman-zaman Özbəkistanda yaşayan, öz talelərini bu ölkə ilə bağlayan azərbaycanlı ziyalılar da mühüm töhfələr veriblər. Bu sırada özbək ədəbiyyatının klassiki, şair, dramaturq, tərcüməçi - əslən Qazaxın Salahlı kəndindən olan Maqsud Şeyxzadənin, görkəmli jurnalist, pedaqoq, ədəbiyyatşünas, ictimai xadim Seyid Rza Əlizadənin, Özbəkistanın və Azərbaycanın xalq artisti Firudin Səfərovun, Azərbaycan əsilli Özbəkistan rəssamı və heykəltaraşı Eynulla Əliyevin adlarını fəxrlə çəkmək olar.

Azərbaycan və Özbəkistan dövlət müstəqilliklərini əldə etdikdən sonra tarixi dostluq və qardaşlıq münasibətləri daha da inkişaf etdirildi və uzun illərin sınağından çıxaraq bugünkü səviyyəsinə gəlib çatdı. Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında, dövlətlərarası münasibətlərin formalaşmasında Ulu öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirərək deyib: "Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov - iki ölkənin liderləri ikitərəfli münasibətlərin bax, bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni, bizim dostluğumuzun böyük tarixi və tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar".

Məhz iki liderin səyləri ilə 1995-ci ildən etibarən ölkələrimiz arasında siyasi münasibətlər yaradılıb, 1996-cı ildə Azərbaycan Respublikasının Özbəkistan Respublikasında, 1998-ci ildə isə Özbəkistan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başlayıb. Bu münasibətlərin davamı kimi ölkələrimiz arasında müxtəlif illərdə dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər həyata keçirilib, müxtəlif sahələrdə əməkdaşlığa, dostluq və tərəfdaşlığa zəmin yaradan sənədlər imzalanıb. Qardaş Özbəkistan dövləti Ümummilli Liderimizin bu fəaliyyətini yüksək dəyərləndirib, Ulu Öndərimizə hər zaman ali ehtiramla yanaşıb, türk dünyasının böyük oğluna özünün yüksək sevgisini və rəğbətini ifadə edib. Bu ali sevginin ifadəsi kimi 2010-cu il sentyabrın 27-də Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistanın ozamankı Baş naziri - hazırkı dövlət başçısı Şavkat Mirziyoyevin iştirakı və xeyir-duaları ilə Heydər Əliyev adına Mədəniyyət Mərkəzi fəaliyyətə başlayıb. Onu da xüsusi vurğulamaq lazımdır ki, Mərkəz məhz Ulu Öndərimizin adını daşıyan küçədə yerləşir. Burada Heydər Əliyev muzeyi, Azərbaycanın dövlətçilik tarixi muzeyi və Azərbaycanın və Özbəkistanın müştərək tarixi muzeyi təşkil olunub. Bu muzeylərin hər birində sərgilənən tarixi sənədlər, nadir eksponatlar ölkələrimiz arasında qədim tarixi və mədəni əlaqələrin bariz nümunələri kimi xüsusi əhəmiyyətə malikdir. Bu gün Özbəkistandakı səfirliyimizin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Mədəniyyət Mərkəzi iki qardaş ölkə arasında mədəni əlaqələrin daha da möhkəmlənməsi naminə böyük səylər göstərir. Mərkəzə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin məzunu, Azərbaycanın Özbəkistandakı səfirliyinin mədəniyyət attaşesi Samir Abbasov rəhbərlik edir.

Ulu Öndərimizin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə qardaş ölkələr arasındakı münasibətlər daha da dərinləşib. Bu dövrdə siyasi, diplomatik əlaqələr, iqtisadi münasibətlərlə paralel olaraq ədəbi-mədəni əməkdaşlıq da yüksələn xətlə inkişaf edib. Bəhs olunan dövrdə Özbəkistanda böyük Azərbaycan şairi Nizami Gəncəvinin, Bakıda böyük özbək şairi Əlişir Nəvainin abidəsi ucaldılıb. Görkəmli Azərbaycan və özbək klassiklərinin əsərləri qarşılıqlı şəkildə tərcümə olunub, kütləvi tirajlarla çap edilib.

Son illər Özbəkistan universitetləri ilə Azərbaycan elminin və təhsilinin flaqmanı olan Bakı Dövlət Universiteti arasında əməkdaşlığa xüsusi önəm verilir. Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov BDU-nu ziyarət edib, elm və təhsil sahəsində qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparılıb. BDU ilə Daşkənd Hüquq Universiteti və Səmərqənd Dövlət Universiteti arasında əməkdaşlıq müqavilələri imzalanıb. Bu müqavilələr iki qardaş dövlətin universitetləri arasında akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafını, elmi-tədqiqat işlərində əməkdaşlığı nəzərdə tutur. Onu da xüsusi vurğulamaq lazımdır ki, Özbəkistanla Azərbaycan arasındakı münasibətlərin inkişafına Ulu Öndərimiz Heydər Əliyevlə birlikdə böyük töhfələr vermiş, Özbəkistanın sabiq Prezidenti İslam Kərimov Bakı Dövlət Universitetinin fəxri doktoru olub.

Bakı Dövlət Universiteti qardaş Özbəkistanın akademik dairələri ilə əlaqələrin davam və inkişaf etdirilməsini özünün prioritet hədəflərindən hesab edir. Buna bariz nümunə kimi bu il sentyabrın 22-dən oktyabrın 2-dək Bakı Dövlət Universiteti, Volkswagen Fondu (Volkswagen Stiftung), Daşkənddəki Turin Politexnik Universiteti və Özbəkistan Fizika Cəmiyyətinin təşkilatçılığı ilə "Kvant elmi və texnologiyalarında müasir meyillər: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Bakıda təşkil ediləcək yay məktəbini göstərmək olar. Qardaş ölkənin elm və təhsil müəssisələri ilə birgə təşkil olunacaq yay məktəbinin məqsədi müasir kvant elminin qabaqcıl ideyalarını, yeni nailiyyətlərini, problemlərini və perspektivlərini araşdırmaq, onların kvant texnologiyalarında praktik tətbiqinə xüsusi diqqət yetirmək, bu sahədə çalışan alimləri bir araya gətirməkdir. Yay məktəbində tədris olunacaq mövzular fundamental və tətbiqi kondensasiya olunmuş maddələr fizikasının mürəkkəb məsələlərinə uyğun olaraq seçilib. Ümid edirik ki, bu tədbir Azərbaycan-Özbəkistan elmi əlaqələrinə daha bir töhfə olacaqdır.

Özbəkistanla elmi və ədəbi-mədəni əlaqələrin inkişafında Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müdiri Ramiz Əskərin də mühüm xidmətləri var. Tanınmış türkoloq alim indiyə qədər özbək ədəbiyyatına aid 15 kitabı tərcümə edib. Onların arasında Əlişir Nəvainin "Xəmsə"sini, Sultan Hüseyn Bayqara və Zəhirəddin Məhəmməd Baburun divanlarını xüsusi vurğulamaq olar. Onu da qeyd edək ki, Ramiz Əskərin bu xidmətləri Özbəkistanda yüksək qiymətləndirilib, alim qardaş ölkədə bir sıra mükafatlara layiq görülüb, nüfuzlu qurumların, o cümlədən Özbəkistanın "Turan" Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

Bu gün Azərbaycan-Özbəkistan münasibətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bu gün Azərbaycan bütün türk dövlətləri, o cümlədən Özbəkistanla ən yüksək səviyyədə diplomatik əlaqələrin qurulmasında və inkişaf etdirilməsində bölgənin lider dövləti kimi mühüm təşəbbüslər göstərir, türk birliyinin inkişafına böyük töhfələr verir. Azərbaycan-Özbəkistan əlaqələri TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası və digər qurumlar çərçivəsində günbəgün inkişaf etdirilir. Eyni zamanda, Özbəkistanda yüksək səviyyədə təşkilatlanmış Azərbaycan diasporu bu əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır.

Qardaş Özbəkistan 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəmizlə artıq tarixdə qalmış Qarabağ münaqişəsinin həllində hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib, dəfələrlə beynəlxalq təşkilatlar, ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində dövlətimizin ərazi bütövlüyü ilə bağlı birmənalı mövqeyini qətiyyətlə ifadə edib. Qürurvericidir ki, Özbəkistan artıq azad Qarabağdakı quruculuq işlərinə qoşulub. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin bilavasitə təşəbbüsü ilə Füzuli rayonunda Özbəkistan dövlətinin vəsaiti hesabına böyük məktəbin inşasının layihəsi Azərbaycan hökumətinə təqdim olunub. Əminik ki, azad Qarabağda aparılan bərpa-quruculuq işlərinə qardaş özbək xalqı və Özbəkistan dövləti daha böyük töhfələr verəcək, iki ölkə arasındakı qarşılıqlı etimada söykənən və əsrlərdir davam edən dostluq və qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət göstərəcəkdir.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*AZƏRTAC*
*22.06.2022*

# BDU-nun Elmi Kitabxanasında Türkiyənin "Narveri" təhsil və texnologiya şirkətinin rəhbərliyi ilə görüş

***İyunun 6-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında Türkiyənin "Narveri" təhsil və texnologiya şirkətinin rəhbərliyi ilə görüş keçirilib. Elmi Kitabxananın direktoru Nigar İsmayılova və şöbə müdiri, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun rəhbəri Cəmilə Yusifova qonaqlara Azərbaycanın ən böyük və ilk ali məktəbi BDU, burada son illər həyata keçirilən islahatlar haqqında məlumat veriblər. Qeyd ediblər ki, bu ilin sonunadək Elmi Kitabxananın fəaliyyəti tam elektronlaşacaq.***

"Narveri" təhsil və texnologiya şirkətinin baş direktoru, Fırat Universitetinin professoru Ahmet Bedri Ozer şirkətin fəaliyyət istiqamətləri, texnoloji məhsulları, məlumat bazaları və akademik kolleksiyaları təqdim edib. O, şirkətin Türkiyədə nəşr olunan jurnalların 90 faizindən çoxunu və on minlərlə çap kitabını əhatə edən, 500 milyondan çox ingilis dilli sənəd ilə xarici dil məzmunu üzrə oxşarlıq testləri həyata keçirən plagiat proqramı haqqında məlumat verib.

Şirkətin kompüter mühəndisi Emre Doğan və Ankara OSTİM Texniki Universitetinin dosenti Ahmet Müngen PİRİ axtarış maşınının, PİRİ Library Discovery Database Service (LİBDİS) və digər proqram təminatlarının imkanlarından bəhs ediblər. PİRİ axtarış maşını süni intellektlər tərəfindən dəstəklənən müasir axtarış alqoritmləri ilə məzmunu tapmaq məqsədi daşıyır və alimlər, tədqiqatçılar üçün istənilən mövzu haqda bir çox məlumat bazalarında axtarışın nəticələrini təhlil edərək siyahılar təqdim edir. PİRİ 100 milyondan çox akademik əsəri (məqalə, tezis və s.), 110-dan çox məlumat bazasının metaverilənlərini, yüzlərlə açıq girişli məlumat bazasının tammətnlərini əhatə edir. LİBDİS Türkiyədə 10 milyondan çox akademik əsərin tammətninin toplandığı məlumat bazası və axtarış sistemidir.

Görüşün sonunda Elmi Kitabxanada Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna üzv ali məktəb kitabxanalarının da iştirakı ilə türk dilində ən böyük axtarış maşını və məlumat bazalarının təqdimatının keçirilməsi məsələləri müzakirə olunub.

# Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi açılıb

***İyunun 24-də Bakı Dövlət Universitetində (BDU) Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi açılıb.***

Mərkəzin açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Universitetin qarşıya qoyduğu əsas məqsədlərdən biri də təhsil və elmin təcrübə ilə əlaqələndirilməsi və müxtəlif sahələr üzrə beynəlxalq standartlara cavab verən yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Yeni yaradılan Mərkəz məhz bu istiqamətdə fəaliyyət göstərəcək.






Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi 24 saat açıq olacaq. Burada tələbələr elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparacaq, tədris prosesində əldə etdikləri bilikləri daha da gücləndirəcəklər. Mərkəz BDU-nun tələbələri ilə yanaşı, digər ali məktəblərin tələbələrinə də xidmət göstərəcək: "Burada tələbələr astronomik müşahidələrdən tutmuş müxtəlif kimyəvi reaksiyalara qədər apara bilərlər. Mərkəzdə ən müasir teleskop, elektron meteostansiya, günəş lövhələri quraşdırılıb. Hər şey tələbələr, onların elmi yaradıcılıq potensialının üzə çıxarılması üçündür".

Təhsil nazirinin müşaviri Nicat Məmmədli isə qeyd edib ki, tələbələrin müxtəlif elm sahələri üzrə müzakirə və təcrübə apara bilmələri üçün belə mərkəzlərin yaradılması zəruridir. Bu tip mərkəzlərin olması universitetlərin "Tədqiqat universiteti" statusu alması üçün də əsas şərtlərdən biridir. Nicat Məmmədli BDU-nun "Tədqiqat universiteti" statusu almağa ən potensial namizəd olduğunu vurğulayıb: "BDU-da Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin, müxtəlif elmi-tədqiqat laboratoriyalarının yaradılması Universiteti "Tədqiqat universiteti" statusuna daha da yaxınlaşdıracaq".

Qeyd edək ki, Mərkəzdə elektronika, materialşünaslıq və kimya mühəndisliyi, İT, proqramlaşdırma və süni intellekt təlimi, mexanika, mexatronika və robototexnika mühəndisliyi, ekologiya mühəndisliyi, astrofizika və kosmik elmlər istiqamətləri üzrə dərnəklər fəaliyyət göstərəcək. Mərkəzə tələbələrin astronomik hadisələri izləyə və gələcəkdə tədqiqatlar apara bilmələri üçün Şmidt-Kassegren teleskopu alınıb. Teleskopun diametri 23 sm-dir.

Bundan başqa Mərkəzdə gecə vaxtı səmanı və meteosellələri izləmək üçün tam-səma kamerası quraşdırılıb. Kamera 180 dərəcəlik görüntü qabiliyyətinə malikdir.

# Jurnalistika fakültəsində "ARB 24 NewsLab" təlim proqramına start verilib



***İyunun 6-da Bakı Dövlət Universiteti ilə "ARB24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində "ARB 24 NewsLab" təlim proqramına start verilib.***

BDU-nun Jurnalistika fakültəsinin müsahibə mərhələlərindən uğurla keçən 10 tələbəsi 3 ay müddətində praktik təlimlərə cəlb ediləcək. Təlim proqramı ərzində həftədə 3 məşğələnin keçirilməsi planlaşdırılır. Onlardan ikisi Jurnalistika fakültəsinin Tele-radio studiyasında, biri isə "ARB 24" telekanalında keçiriləcək.

Təlim proqramını uğurla başa vuran tələbələrin 50 faizi "ARB 24" telekanalında işlə təmin olunacaq.

# BDU əməkdaşlarına Təhsil Nazirliyinin təltifləri təqdim olunub

***İyunun 16-da Bakı Dövlət Universitetinin Təhsil Nazirliyi tərəfindən təltiflərə layiq görülmüş əməkdaşlarına mükafatlar təqdim edilib.***



Tədbirdə çıxış edən Universitetin rektoru Elçin Babayev bildirib ki, təhsil naziri Emin Əmrullayevin əmri ilə yüksəkixtisaslı kadrların hazırlanmasında uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətlərinə görə BDU-nun 6 əməkdaşı "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, bir əməkdaşı isə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı" ilə təltif olunub.

Rektor təltiflərə layiq görülən Universitet əməkdaşlarını təbrik edib, onların hər birinin BDU-nun fəaliyyətində böyük rolunun olduğunu vurğulayıb.

Daha sonra rektor Elçin Babayev BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədliyə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı"nı, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Təhsin Mütəllimova, Sosiologiya kafedrasının məsləhətçi-professoru İzzət Rüstəmova, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri Rəbiyyət Aslanovaya, Beynəlxalq münasibətlər kafedrasının müdiri Ağalar Abbasbəyliyə və Milli mətbuat tarixi kafedrasının professoru Nəsiman Yaqubluya "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanlarını təqdim edib.

# II Məktəblilərarası Astronomiya Olimpiadasının qalibləri mükafatlandırılıb



***İyunun 3-də Bakı Dövlət Universitetində ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında "Şuşa ili"nə həsr olunmuş II Məktəblilərarası Astronomiya Olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.***

Mərasimdə çıxış edən Tusi-Bohm Planetariumun direktoru və Beynəlxalq Astronomiya Olimpiadasının ölkə üzrə həmrəhbəri Famil Mustafa məktəblilər arasında astronomiya elminə marağın ildən-ilə artdığını bildirib. Qeyd edib ki, II Məktəblilərarası Astronomiya Olimpiadasının keçirilməsində məqsəd şagirdlər arasında astronomiya sahəsinə marağın artırılması, təhsil sistemində astronomiyaya geniş yer verilməsi və qaliblərin Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlığının təmin olunmasıdır. Olimpiada qalibləri arasından seçilmiş 5 nəfər iyun ayının sonunda Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında iştirak edəcək.

Olimpiada Təhsil Nazirliyinin "İnkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi" çərçivəsində həyata keçirilib. Olimpiadanın təşkilatçıları Bakı Dövlət Universiteti, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Təhsil İnstitutu və Beynəlxalq Astronomiya İttifaqının Astronomiya Təhsili İdarəsidir.

Layihənin rəhbəri, Bakıdakı 173 nömrəli orta məktəbin fizika müəllimi İlhamə Səfərova bütün Olimpiada qaliblərinə uğurlar arzulayıb. O bildirib ki, orta məktəblərdə astronomiya ayrıca fənn kimi tədris edilməsə də, ayrı-ayrı fənlərin içərisində astronomiyaya dair mövzular salınır. İlhamə Səfərova təmsil etdiyi məktəbdə Astronomiya dərnəyinin fəaliyyət göstərdiyini, şagirdlərin bu fənnə marağının çox olduğunu qeyd edib.

BDU-nun Astrofizika kafedrasının müdiri Kəmalə Alışeva Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasının tarixi barədə məlumat verib. Vurğulayıb ki, 2007-ci ildən keçirilən Olimpiadaya Azərbaycan ötən ildən qatılır. Kəmalə Alışeva Olimpiadaya qatılacaq şagirdlərin qalib gələcəyinə əmin olduğunu bildirib və II Məktəblilərarası Astronomiya Olimpiadasının keçirilməsinə şərait yaradılmasına görə BDU-nun rəhbərliyinə təşəkkür edib.

Münsiflər Heyətinin qərarına əsasən, Olimpiadanın 20 nəfər qalibi seçilib. Onlardan 5 nəfəri I, 8 nəfəri II, 7 nəfəri isə 3-cü yeri tutub.

Qaliblər diplom və sertifikatlarla təltif olunublar.

# "Gələcəyini qur!" layihəsinin iştirakçıları ilə görüş

***İyunun 3-də Bakı Dövlət Universitetində "Gələcəyini qur!" gəncliyə dəstək layihəsində iştirak edən XI sinif şagirdləri ilə görüş təşkil olunub.***

Tədbiri giriş sözü ilə açan BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov şagirdlərə Universitetin tarixi və fəaliyyəti barədə ətraflı məlumat verib, ali məktəblərin tanıdılması baxımından layihənin əhəmiyyətini vurğulayıb.

Daha sonra tədbirdə spiker qismində layihənin hökümət və ictimaiyyətlə əlaqələr üzrə direktoru (GL Ltd) Aybəniz İsmayılova və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin direktor müavini Anar Məmmədov çıxış ediblər. Spikerlər öz təcrübələrini bölüşüb, peşəkar mütəxəssis kimi formalaşmaq üçün abituriyentlərə tövsiyələr veriblər.

Tədbirdə həmçinin müxtəlif illərdə "Gələcəyini qur!" layihəsindən faydalanan, hazırda isə BDU-nun Hüquqşünaslıq, Kompüter elmləri, Dövlət və ictimai münasibətlər, Sosial iş, Jurnalistika və digər ixtisaslarında təhsil alan gənclər də iştirak edib, məktəbliləri özlərinin tələbə həyatları haqqında məlumatlandırıblar. Daha sonra şagirdlər BDU-nun ərazisini gəziblər.

Qeyd edək ki, "Gələcəyini qur!" gəncliyə dəstək layihəsi Təhsil Nazirliyinin və müxtəlif sponsor şirkətlərin dəstəyi ilə 2014-cü ildən fəaliyyət göstərir.

# "Gənc istedadlar" liseyinin şagirdləri Geomatika və geodeziya mühəndisliyi ixtisası ilə tanış olublar

***İyunun 3-də Coğrafiya fakültəsinin Geodeziya və kartoqrafiya kafedrasının professor-müəllim heyəti BDU-nun nəzdində "Gənc istedadlar" liseyində Geomatika və geodeziya mühəndisliyi ixtisası ilə tanışlığa dair görüş keçirib.***

Görüşdə Geodeziya və Kartoqrafiya kafedrasının müdiri, professor, Əməkdar müəllim Məqsəd Qocamanov şagirdlərə Geomatika və geodeziya mühəndisliyi ixtisasının məzmunu, geodeziya elminin tarixi inkişaf yolu, perspektivləri, ölkənin ictimai-siyasi həyatındakı rolu, 44 günlük Vətən müharibəsi və müharibədən sonrakı dövrdə Qarabağda aparılan bərpa və quruculuq işlərində kafedranın keçmiş məzunlarının yerinə yetirdiyi işlər, Geomatika və geodeziya mühəndisliyi ixtisası üzrə fənlər və çöl geodeziya təcrübələri haqqında slaydlarla məruzə edib.

Sonra kafedra əməkdaşlarından dosentlər Ramiz Əhlimanov, Mehman Mehbalıyev, Əfqan Talıbov, baş müəllim Mübariz Orucov, Azərbaycan coğrafiyası və coğrafiyanın metodikası kafedrasının dosenti Çingiz Qələndərov, Liseyin direktoru Arif Bağırov çıxış ətrafında məruzələr ediblər.

Görüşün sonunda BDU-nun alimləri şagirdləri maraqlandıran sualları cavablandırıblar.

# BDU-nun tələbələri "Qələbənin imza günü" adlı fotosərgini ziyarət ediblər

***İyunun 28-də Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin bir qrup tələbəsi "Space" Televiziyasında Milli Qurtuluş Gününə həsr olunan "Qələbənin imza günü" adlı fotosərgi ilə tanış olublar.***



İctimaiyyət tərəfindən böyük maraq və rəğbətlə qarşılanan fotosərgidə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi günləri boyunca şəhid əsgər və zabitlərimizin, qazilərimizin azad edilmiş ərazilərimizdəki binaların divarlarına əks etdirdikləri yazıların, avtoqrafların fotoları nümayiş etdirilir.

"Space" Televiziyasının məsul şəxsləri fotosərgi barədə tələbələrə ətraflı məlumat verib, öz qanları ilə qəhrəmanlıq tariximizə imza atan şəhidlərimizin xatirəsinin əbədi yaşayacağını vurğulayıblar. BDU tələbələrinin fotosərgidə iştirakı "Space" Televiziyasında işıqlandırılıb, kanala müsahibə verən tələbələr sərginin onlarda böyük təəssürat, sonsuz qürur hissi yaratdığını bildirib, qalib ölkəmizlə, qüdrətli ordumuzla fəxr etdiklərini ifadə ediblər.

# "Gənc istedadlar" liseyinin 7 şagirdi Lütfi Zadə adına məntiq olimpiadasında qalib olub



***İyunun 24-də Lütfi Zadə adına məntiq olimpiadasının qaliblərinin mükafatlandırma mərasimi keçirilib. Bilik yarışında qalib olan 65 şagirddən 7-si Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin şagirdləridir.***

Belə ki, liseyin şagirdləri Məhəmməd Salmanov və Alikamal Salman I yerə, Sulduz Hacıyev və Aqşin Hüseynli II yerə, Nəzrin Abdullazadə, Mehri Qasımzadə, Aysu Abbasova III yerə layiq görülüblər.

Xatırladaq ki, olimpiada Təhsil Nazirliyi və Təhsil İnstitutunun birgə təşkilatçılığı ilə V sinif şagirdləri arasında keçirilib.

# Türkiyənin tanınmış şairi Mehmet Nuri Parmaksızla görüş keçirilib

***İyunun 2-də Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə Türkiyə Elmi və Ədəbi Əsər Sahibləri Məslək Birliyinin (İLESAM) rəhbəri, tanınmış şair Mehmet Nuri Parmaksızla görüş keçirilib.***



Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid iki qardaş ölkə arasında ədəbi-mədəni əlaqələrin günbəgün inkişaf etdiyini bildirib. Bir neçə gün əvvəl BDU-da keçirilən I Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının bu əlaqələrə yeni bir töhfə olduğunu vurğulayıb. Rəşad Məcid şair Mehmet Nuri Parmaksızın yaradıcılığı haqqında görüş iştirakçılarına məlumat verib, ədibin əsərlərindən örnəkləri diqqətə çatdırıb.

Mehmet Nuri Parmaksız görüş iştirakçılarını salamlayaraq, rəhbərlik etdiyi təşkilatın fəaliyyəti, həyata keçirdiyi layihələrdən bəhs edib. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən söz açan Mehmet Nuri Parmaksız Qarabağda gerçəkləşdirilən quruculuq işlərinin mədəni mühitin bərpasını da əhatə etməsindən məmnunluğunu bildirib. Qeyd edib ki, rəhbərlik etdiyi qurum Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən həyata keçirilən "Qarabağa kitabla gedək" layihəsinə qoşulub və minlərlə nüsxə kitabı artıq azad Qarabağda yaradılacaq kitabxanaların fonduna hədiyə edib. Mehmet Nuri Parmaksız onunla görüşə şərait yaratdıqlarına görə BDU rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirib.

Tədbirin sonunda Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələrinin ifasında Mehmet Nuri Parmaksızın şeirləri səsləndirilib.

# BDU alimləri "Azerbaijan International Mining Company Limited" şirkətinin mədənlərində olublar

**İyunun 10-da Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının professor-müəllim heyəti "Azerbaijan International Mining Company Limited" şirkətində (Gədəbəy rayonu) olublar.**



Onlar kafedranın yerinə yetirdiyi "Strateji növ mineral xammal yataqları: geoloji xüsusiyyətləri, əmələgəlmə şəraiti, kompleks mənimsənilməsinin və emalının problemləri" mövzusu üzrə nəcib və əlvan metal yataqlarının geologiyası, yerləşmə qanunauyğunluqları, genetik modellərinin qurulması və perspektivlik kriterləri istiqamətində elmi-tədqiqat işlərinin davam etdirilməsi üçün şirkətin müqavilə sahəsindəki "Gədəbəy", "Zəfər", "Qədir" və "Uğur" mədənlərinə baş çəkib, yeraltı və yerüstü mədənlərdə müşahidələr aparıblar. Eyni zamanda şirkətin filizlərin doğranması və üyüdülməsi sexlərinə, aşındırılması meydançalarına, filiz emalı zavoduna səyahət edilib, qızıl, mis və gümüş kimi metalların emalı prosesi izlənilib.

Aparılan müşahidələrin yekunu olaraq kafedra əməkdaşlarının təşəbbüsü və şirkətin aparıcı mütəxəssislərinin iştirakı ilə ""Azerbaijan International Mining Company Limited" şirkətinin fəaliyyət planı, müqavilə sahələrində yerləşən yataq və təzahürlərin qlobal tektonikada mövqeyi, genetik modellərinin müasir filizəmələgəlmə modellərinə tətbiqi" mövzusunda elmi-praktiki seminar keçirilib.

Seminarda şirkətin böyük geoloqu Cavid İbrahimov çıxış edib. Sonra mövzu ətrafında müzakirə və çıxışlar olub.

Şirkətin əməkdaşları Anar Vəliyev, Şakir Qədimov, Rəşad Əsgərov, fakültənin dekanı Mamoy Mansurov, professorlar Nazim İmamverdiyev, Şəhla Abdullayeva və dosent Aygün İsmayılova mövzu ətrafında çıxış edərək, belə tədbirlərin davamlı olmasının vacibliyini bildiriblər.

# Ali məktəb kitabxanaları üçün "EBSCO - eBooks platformasında axtarış" adlı təlim-seminar

***İyunun 10-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna üzv olan ali məktəb kitabxanaları üçün "EBSCO - eBooks platformasında axtarış" mövzusunda təlim-seminar keçirilib.***

Təlim seminar 2022-ci ilin may ayından etibarən universitetlərin professor-müəllim heyəti, gənc tədqiqatçıları və oxucularına 3 ay müddətinə ödənişsiz istifadəyə verilən və 218 639 elektron kitabdan ibarət "eBook Academic Collection"dan istifadə qaydalarına həsr olunub.

İstifadəçilər üçün rahat interfeysi olan bu kolleksiyanın bir platformadan asan idarə edilməsi onu kitabxanalar üçün əsas elektron resurs bazasına çevirir.

Təlim-seminar EBSCO şirkətinin təlimçi mütəxəssisi İrina Serjan tərəfindən keçirilib. İrina Serjan elektron kitabları yükləmək, istinadlar haqqında məlumat almaq, yüklənmiş məlumatları müxtəlif dillərə tərcümə etmək, sosial şəbəkələrdə paylaşmaq və s. üsullarla platformadan istifadə imkanlarını izah edib.

Sonda İrina Serjan iştirakçılar tərəfindən verilən sualları cavablandırıb.

# Şərqşünaslıq fakültəsində türkiyəli alimlərlə görüş keçirilib

***İyunun 3-də Şərqşünaslıq fakültəsində Türkiyənin Ankara Bəyazid Universitetinin professoru, ərəbşünas alim Yaqub Çivelek və İstanbul Yıldız Universitetinin Pedaqogika fakültəsinin professoru Süleyman Doğan ilə görüş keçirilib.***

Görüşdə Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, tədris işləri üzrə dekan müavini Tərlan Məlikov, elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə, Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı, Türk filologiyası kafedrasının müdiri Rüfət Rüstəmov, Ərəb filologiyası kafedrasının baş müəllimi Könül Eyvazova iştirak ediblər.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan ölkənin ilk və ən böyük ali məktəbi olan BDU-nun tarixi, fəaliyyəti, Şərqşünaslıq fakültəsi haqqında qonaqlara ətraflı məlumat verib.

Görüşdə universitetlər və fakültələr arasında əlaqələrin qurulması, tələbə-müəllim mübadiləsi, ortaq tədqiqat işlərinin aparılması, birgə elmi seminar, ustad dərsləri, onlayn dərslərin təşkili ilə bağlı müzakirələr aparılıb. Ərəb dilinin tədrisində universitetlərarası təcrübə mübadiləsinə xüsusi önəm verilib.

Türkiyənin hər iki universitetinin nümayəndəsi şərqşünaslıq sahəsində əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildiriblər.

# Tanınmış özbək alimi BDU-da

***İyunun 10-da Mirzə Uluqbəy adına Özbəkistan Milli Universitetinin Sosial elmlər fakültəsinin Fəlsəfə və mənəviyyatın əsasları kafedrasının müdiri Niginaxon Şermuhammedova BDU-nun Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanovanın dəvəti ilə Sosial elmlər və psixologiya fakültəsində olub.***

"Filosofiya i jizn" beynəlxalq jurnalının baş redaktoru, Rusiya Fəlsəfə Cəmiyyətinin Rəyasət Heyətinin fəxri üzvü, əməkdar elm və təhsil işçisi Niginaxon Şermuhammedova həm də Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin Rəyasət Heyətinin üzvüdür. Əsasən elmin metodologiyası, fəlsəfəsi, epistemologiya və təhsilin fəlsəfi problemləri üzrə tədqiqatlar aparan Niginaxon Şermuhammedova 15-dən çox dərsliyin, iki monoqrafiyanın, 300-dən çox məqalənin müəllifidir.

O, Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadovla və tələbələrlə görüşüb. Dekan Rövşən Cavadov görüş zamanı tələbələrə bildirib ki, professor Niginaxon Şermuhammedova Özbəkistanda, eləcə də MDB ölkələrində tanınan alim qadınlardan biridir. O, ontologiya, qnoseologiya, təhsilin fəlsəfəsi, fəlsəfi antropologiya fənlərindən mühazirələr oxumaqla yanaşı, 6 beynəlxalq elmi jurnalın Redaksiya Heyətinin üzvüdür. Müxtəlif mövzular üzrə keçirilən müzakirələrdə fəal iştirak edən Niginaxon Şermuhammedova on beş illik elmi fəaliyyəti dövründə 10-dan çox elmlər namizədinə rəhbərlik edib.

Sosial elmlər və psixologiya fakültəsinin struktur bölmələri ilə tanış olan alim Fəlsəfə, Sosial iş, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedralarının professor-müəllim heyətləri ilə görüşüb. Niginaxon Şermuhammedova fakültə alimləri ilə görüşündən böyük məmnunluq hissi keçirdiyini qeyd edib, gələcəkdə azərbaycanlı elm adamlarının Özbəkistan ali məktəblərində görüşlər keçirməsinin əhəmiyyətini vurğulayıb. Gender və tətbiqi psixologiya kafedrasında aparılan tədqiqatlar və nəşr edilən elmi əsərlərlə tanış olan alim bu istiqamətdə həyata keçirilən işləri yüksək qiymətləndirib.

# BDU-nun tələbələrdən ibarət idman komandalarının növbəti uğuru

**İyunun 4-də Bakı Dövlət Universitetinin tələbələrdən ibarət futbol, basketbol və voleybol komandaları Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və Nəsimi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 31 may - Ümumdünya Tütünlə Mübarizə Gününə həsr olunmuş idman yarışlarında iştirak ediblər.**



Azərbaycan Tibb Universitetinin idman zalında keçirilən yarışlarda BDU-nun futbol komandası I yeri, oğlanlardan ibarət basketbol komandası II yeri, qızlardan və oğlanlardan ibarət voleybol komandası isə III yeri qazanıb. İdman tədbirinin bağlanış mərasimində qalib komandalar kubok və müxtəlif diplomlarla təltif olunublar.

Qeyd edək ki, yarışların keçirilməsində məqsəd gənclər arasında sağlam həyat tərzinin və idmanın təbliğidir. Yarışlarda 10 ali təhsil müəssisəsinin tələbələrdən ibarət komandaları iştirak edib.

# BDU tələbələri Şamaxıda çöl-tədris təcrübəsində

***İyunun 2-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekologiya, Torpaqşünaslıq və aqrokimya, Yerquruluşu, torpaq və şəhər kadastrı ixtisasları üzrə təhsil alan IV kurs tələbələri (Azərbaycan, rus və ingilis bölmələri üzrə) Şamaxı rayonunda çöl-tədris təcrübəsində olublar.***



Azərbaycan Milli Elmlər Akademiyasının Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının əməkdaşı Səbahəddin Alışov tələbələrə rəsədxananın yaranma tarixi, ərazisi üçün Pirqulunun seçilmə səbəbi, görülən işlər və aparılan tədqiqatlardan danışıb. O, rəsədxanada müxtəlif illərdə istifadəyə verilmiş üfüqi Günəş, AST-452, AZT-8, "Seyss-600" teleskopları haqqında məlumat verib, onların işləmə mexanizmini izah edib.

Təcrübə zamanı tələbələrin sualları cavablandırılıb, astrofizika, qalaktikalar, "böyük partlayış", "qara dəlik", kosmosun çirklənməsi və s. mövzularda maraqlı diskussiyalar aparılıb.

Tələbələrə Dağlıq Şirvan iqtisadi-coğrafi rayonuna daxil olan Şamaxı rayonu, rayonda torpaq-landşaft komplekslərinin növləri, kənd təsərrüfatı, sənaye, istirahət-rekreasiya ehtiyatları və s. haqqında məlumat verilib. Rayonun müxtəlif ərazilərində havada ozonun, ammonyakın, suda və torpaqda pH-ın miqdarı təyin edilib, portativ dozimetr vasitəsi ilə müxtəlif yerlərdə radiasiyanın səviyyəsi ölçülüb. Sumqayıtçay, Ceyrankeçməz və Pirsaat çaylarının qidalanma rejiminin qiymətləndirilməsi, kadastr rayonları üzrə hündürlük qurşaqları boyunca torpaq tipləri, landşaft strukturu və meşə örtüyünün əvəzlənməsi prinsiplərinə yerində baxış keçirilib.

Bölgənin dini-sakral (Pirsaat baba kompleksi, Şamaxı Cümə məscidi) və tarixi-maddi abidələri (Türk şəhidliyi məzarları) ziyarət edilib. Yaşayış məntəqələrinin ərazi üzrə paylanması, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin səmərəli istifadəsi, dövlət və bələdiyyə fondu torpaqlarının məqsədli təyinatı və hüquqi rejimə görə reqlamentlərinin müqayisəli təhlilləri aparılıb.

Qafqazda yeganə eko-park olan Şamaxı Safari Parkına səfər zamanı ərazidə qorunub saxlanılan və sayı artırılan nəcib maral, xallı maral, Altay maralı, muflon, alkapa, lama və zubr kimi genetik qiymətli heyvanlar haqqında məlumat əldə edilib.

Təcrübənin sonunda tələbələr Qobustan rayonu ərazisində Kənd Təsərrüfatı Nazirliyinin Sərgi Mərkəzinə səfər edib, orda yerli mütəxəssislərin iştirakı ilə Heyvandarlıq kompleksinin işi ilə tanış olublar. Ən müasir texnologiyaların tətbiq edildiyi istehsalat sahələrində heyvanlara göstərilən qulluğun səviyyəsi tələbələrdə böyük maraq yaradıb. Səfərin sonunda tələbə və müəllimlər Qobustan rayonu ərazisində naməlum türk əsgərinin məzarını ziyarət ediblər.

# BDU tələbələrinin "Azərbaycan Dəmir Yolları" QSC-nin qurumlarına ekskursiyası

***İyunun 13-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin strukturuna daxil olan qurumlara ekskursiya ediblər.***

Tələbələr ekskursiyaya 28 may stansiyasından qatarla Biləcəri stansiyasına getməklə başlayıblar. Daha sonra Biləcəri yuyucu-buxarlayıcı stansiyasına və Biləcəri yeni lokomotiv deposuna gedərək "Azərbaycan Dəmir Yolları" QSC-nin fəaliyyəti haqqında məlumatlandırılıblar.

Ekskursiya zamanı dəmiryol nəqliyyatında həyata keçirilən innovativ proseslər və ətraf mühitə zərərli təsirlərin minimallaşdırılması məqsədilə icra olunan tədbirlər barədə yerində geniş məlumat verilib. Qeyd olunub ki, hazırda respublikanın dəmir yollarında yük və sərnişinlər əsasən elektrik dartı sistemində işləyən müasir hərəkət tərkibləri ilə daşınır ki, bu da ekoloji tarazlığın saxlanılmasına öz müsbət təsirini göstərməkdədir.

# Mərkəzi Lankaşir Universitetinin aliminin BDU-nun SABAH qrupları tələbələrinə ustad dərsi

***İyunun 1-də Böyük Britaniyanın Mərkəzi Lankaşir Universitetinin müəllimi, fəlsəfə doktoru Ali Badiei Bakı Dövlət Universitetinin (BDU) SABAH qruplarının tələbələrinə ustad dərsi keçib.***

"Alternativ enerji texnologiyaları" adlı ustad dərsində enerji və karbon iqtisadiyyatı, külək enerjisi, ondan istifadə qaydaları, istilik mühərrikləri ilə bağlı məsələlərə toxunulub.

Tələbələrə atmosferdə karbonun artma səbəbləri, mənfi təsirlərini azaltmaq yolları, digər enerji mənbələri haqqında məlumat verilib. Alternativ enerji mənbəyi olan külək enerjisinin çatışmazlıqları, istifadə qaydaları, növləri, vertikal və horizontal quruluşları, işləmə mexanizmləri ətraflı izah olunub. Horizontal külək enerji mənbələrində qüvvələrin paylanma qanunlarından, vertikal enerji mənbələrində isə diametrdən asılı olaraq külək enerjisinin miqdarından bəhs edilib. Külək turbinlərinin strukturu, onlardan enerji əldə olunması və sənayedə tətbiqi məsələlərinə diqqət çəkilib.

Sonda mövzu ilə bağlı tələbələrlə diskussiya aparılıb.

# Məktəblilər BDU-nun Təkamül muzeyini ziyarət ediblər

**İyunun 2-də Bakı şəhərindəki 170 nömrəli məktəbin X sinif şagirdləri Bakı Dövlət Universitetinin Təkamül muzeyini ziyarət ediblər.**

Muzeyin müdiri Yeganə Əliyeva qeyd edib ki, Qafqazda bu sahədə yeganə olan muzey 1937-ci ildə professor Mirəli Axundovun təşəbbüsü ilə yaradılıb.

Şagirdlərə muzeydəki eksponatlar haqqında ətraflı məlumat verilib. Bildirilib ki, ziyarətçilər təkamül prosesini 2461 eksponatdan ibarət əyani vəsait əsasında izləyə bilirlər. Paleozoy, mezozoy, kaynozoy eralarına dair toplanmış eksponatlar muzeydə onların tarixi inkişafına uyğun olaraq ardıcıllıqla yerləşdirilib.

Muzeydə həmçinin kənd təsərrüfatının yeni, məhsuldar bitki sortları, heyvan cinslərinin yaradılmasının nəzəri əsaslarını hərtərəfli şərh edən və onun hərəkətverici qüvvəsinin süni seçmə olduğunu göstərən müxtəlif ekspozisiyalar da nümayiş etdirilir.

Şagirdlər muzeydə Azərbaycanın faunasını əks etdirən ekspozisiyalarla da tanış olublar. Burada 70-dək quş növünün (kəklik, qartal, tovuz, turac, ördək və s.) müqəvvaları qorunub saxlanılır.

# BDU tələbələri Prezident Kitabxanasının iş təcrübəsi ilə tanış olublar



***İyunun 7-də Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin II kurs tələbələri müasir texnologiyalar əsasında təşkil edilmiş, modern infrastruktura malik Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının iş təcrübəsi ilə tanış olublar.***

Kitabxananın əməkdaşları Prezident Kitabxanasının fəaliyyəti, strukturu, sənəd dövriyyəsi, kitab fondu, oxucu kateqoriyaları və eləcə də prioritetləri barədə tələbələrə ətraflı məlumatlar veriblər. Tələbələr kitabxananın elektron kataloqu ilə tanış olublar. Prezident Kitabxanasında həyata keçirilən rəqəmsallaşdırma prosesləri barədə ətraflı informasiyalar onların diqqətinə çatdırılıb.

Görüş zamanı tələbələrin sualları Prezident Kitabxanasının mütəxəssisləri tərəfindən cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti, təcrübə rəhbəri Rəşad Qardaşov Prezident Kitabxanasının rəhbərliyinə yaradılmış şəraitə, tələbələrə göstərilən xüsusi diqqət və qayğıya görə təşəkkürünü bildirib.

# Selçuk Bayraktarı təəccübləndirən BDU tələbəsi: "Onunla bir də görüşsəm, əlini sıxıb təşəkkür edəcəyəm"

*Azərbaycanda keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalında çıxış edən "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "TEKNOFEST niyə təşkil olunur?" sualına cavab olaraq azərbaycanlı tələbənin fikrindən sitat gətirib.*

***O, "Əlbəttə, dünya türkün gücünü görsün və yerini bilsin" deyə qeyd edib.***

*Gündəmi zəbt edən cavabın sahibi Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin III kurs tələbəsi Züleyxa Ağaməliyeva Selçuk Bayraktarla necə həmsöhbət olduğunu, keçirdiyi hissləri bölüşüb:*



***- Selçuk Bayraktarla qarşılaşma anınız necə oldu? Onunla söhbətinizi necə xatırlayırsız?***

- Media könüllüsü kimi mayın 26-da festivala mən də qatıldım. Orada Selçuk Bayraktarla qarşılaşdım. Yaxınlaşıb şəkil çəkdirmək üçün icazə istədim. O da nəzakətlə razı oldu. Bir neçə dəqiqə söhbət etdik. Sonda o, anidən mənə "Səncə, TEKNOFEST niyə təşkil olunur?" sualını ünvanladı. Mən də cavabında "Əlbəttə, dünya türkün gücünü görsün və yerini bilsin" dedim, o isə məni alqışlayaraq təşəkkür etdi.

***- Bu festival sizin üçün başqa nələri ifadə edir?***

- Düşünürəm ki, festivalın keçirilməsi ölkəmiz, əsas da gənclər üçün qürur mənbəyidir. Onlar burada yeni texnologiyalarla tanış oldular və maariflləndilər. Milli texnologiyaların təbliği çox böyük addımdır. Həqiqətən də möhtəşəm bir təşəbbüsdür.

***- Selçuk bəyin nitqi zamanı sizin sözlərinizi vurğulamasını ilk eşitdiyiniz zaman təəssüratlarınız necə oldu?***

- Selçuk Bayraktarın çıxışında sözlərimi vurğulaması məndə qürur hissi oyatdı. Həmin an tutulub qaldım, gözlərim doldu... Düşünürəm ki, gənclərin səsi həmişə dinlənilməlidir. Mənim səsimi duyduğu və öz nitqində bunu xüsusi olaraq vurğuladığı üçün Selcuk bəyə öz dərin təşəkkürlərimi bildirirəm. Gələcəkdə Selçuk Bayraktarla bir də görüşmək imkanı əldə etsəm, şəxsən əlini sıxıb, təşəkkür edəcəm.

***- Dostlarınız və yaxınlarınızın reaksiyası necə oldu?***

-Dostlarım, yaxınlarım ən azı mənim qədər qürur hissi keçirdilər. Hətta Selçuk bəyin nitqini paylaşaraq mənimlə qürur duyduqlarını, sevinclərini bölüşdülər. Əlbəttə ki, bu da mənə çox yaxşı təsir etdi.

***Mənbə: ednews.net***

# BDU Türkiyədə Azərbaycan universitetlərinin sərgisində təmsil olunur

## Türkiyənin İstanbul Kent Universitetində təhsil sərgisi açılıb



***İyunun 11-də "Azedu Academy" təhsil mərkəzinin təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycanın nüfuzlu ali təhsil müəssisələri - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Bakı Slavyan Universiteti təmsil olunub.***

Sərgi qardaş ölkənin mediası və təhsil ictimaiyyətinin diqqətini cəlb edib, belə tədbirin təşkil olunmasının Azərbaycan və Türkiyənin təhsil sahəsində əlaqələrinin daha da gücləndirilməsi baxımından xüsusilə önəmli olduğu bildirilib.

Təhsil proqramına uyğun şəkildə təşkil olunan sərgi iki gün davam edib.

Məqsəd Azərbaycan universitetlərinin təbliği və xarici ölkələrin tələbələrinin diqqətini ölkəmizin ali təhsil müəssisələrinə cəlb etməkdən ibarətdir.

Ölkəmizin hüdudlarından kənarda belə tədbirlərin keçirilməsi Azərbaycan təhsilinin dünya miqyasında tanıdılması, eyni zamanda, təbliği baxımından xüsusi əhəmiyyətə malikdir.

"Azedu Academy" təhsil mərkəzi qardaş Türkiyə ilə yanaşı, digər ölkələrdə də Azərbaycan universitetlərinin təhsil sərgilərinin təşkilini nəzərdə tutur.

# BDU-da "Yaşıl düşün" adlı müsabiqə keçirilib



***İyunun 6-da Bakı Dövlət Universitetinin Ekologiya və torpaqşünaslıq fakültəsi 5 iyun - Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı tələbələr arasında "Yaşıl düşün" adlı müsabiqə keçirib.***

Müsabiqənin keçirilməsində məqsəd tələbələrin diqqətini ətraf mühitin vacib problemlərinə yönəltmək, onların bu sahədə yaradıcı düşüncələrini zənginləşdirməkdir.

Müsabiqəyə tələbələr arasında yüksək maraq olub. Münsiflər Heyətinin qərarına əsasən, fakültənin tələbələri Afaq Əliyeva təbiətin təbii və antropogen dəyişilməsini bir tabloda əks etdirdiyi rəsmə görə I yerə, Nuriyyət Abdullayeva ətraf mühitə antropogen təsirin əks olunduğu rəsmə görə II yerə, Gülər Quluzadə tullantı məhsullarının təkrar emalını əks etdirən qlobusun təqdimatına görə III yerə layiq görülüblər. Fakültə rəhbərliyi tərəfindən belə müsabiqələrin mütəmadi keçirilməsi qərara alınıb.

# BDU-da rumıniyalı alimlə görüş

***İyunun 21-də Bakı Dövlət Universitetinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında Qara Dəniz Universitetləri Şəbəkəsinin (BSUN - Black Sea Universities Network) İdarə Heyətinin sədri, Rumıniyanın Ovidus Universitetinin Nanotexnologiya və Alternativ Enerji Mənbələri İnstitutunun direktoru, 9-cu Qlobal Bakı Forumunun iştirakçısı, professor Eden Mamutla görüş keçirilib. Görüşə onlayn formada Buxarest Universitetinin Nanoelmlər - Alternativ Enerji Mənbələri Tədqiqat Mərkəzinin rəhbəri, professor Ioan Stamatin də qatılıb.***

Görüşdə professor Eden Mamut Azərbaycan-Rumıniya universitetləri arasındakı əlaqələrin yaranma tarixindən danışıb, daha sonra iştirakçıları hazırda fəaliyyət göstərdiyi institutun elmi istiqamətləri, perspektivləri ilə yaxından tanış edib.

Görüşdə Rumıniya və Azərbaycan universitetləri arasında ikitərəfli əməkdaşlıq imkanları müzakirə olunub. Beynəlxalq elmi tədqiqat və təhsil proqramları çərçivəsində əməkdaşlığın mümkün istiqamətləri haqqında müzakirələr aparılıb.

## BDU-nun İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı uğurla davam edir

Bakı Dövlət Universitetinin İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı uğurla davam edir. İsrailin Holon Texnologiya İnstitutu ilə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Kompüter elmləri ixtisası üzrə bakalavr pilləsində ikili diplom proqramının icrasına 2020/21-ci tədris ilinin yaz semestrindən başlanılıb.

Proqramın əsas məqsədi kompüter elmləri sahəsində effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyalarını real sənaye məsələlərinin həllində tətbiq etmək bacarığına malik mütəxəssislər hazırlamaqdır. Hazırda ikili diplom proqramında 10 tələbə təhsil alır. Onlardan proqrama ilk qoşulan 5 tələbə yaxın zamanlarda təhsilini başa vuraraq ikili diplomunu alacaq.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Allahverdi Məmmədli, Xatirə Hüseynova, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.06 .2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08